# ülfat

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 01 İYUL 2021-Cİ İL / № 24 (1242)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU


## “Silahlı Qüvvələr Gününü biz Müzəffər Ordu kimi, qəhrəman xalq kimi qeyd edirik. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə “Gülüstan” sarayında Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşüb.**

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı görüşdə iştirak edən hərbçiləri və bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edərək deyib: “İyunun 26-sı Silahlı Qüvvələr Günüdür. Bu günü biz hər il təntənə ilə qeyd edirdik. Müxtəlif tədbirlər keçirilirdi. Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir.

Biz İkinci Qarabağ müharibəsinin nəticələrini və gedişatını düzgün təhlil edərək, əlbəttə ki, öz hərbi gücümüzü artıracağıq. Ermənistanın isə, əgər onlar yenə də bizə qarşı düşmənçilik siyasətindən əl çəkməsələr, nəinki hərbi gücünü, nəinki dağılmış, məhv edilmiş ordusunu bərpa etmək imkanı olmayacaq, eyni zamanda, iqtisadi fəallığı bərpa etmək imkanları da çox məhduddur. Ona görə biz güclənəcəyik.

**Ermənistanın inkişafı üçün də yeganə yol var - öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkmək, Dağlıq Qarabağ sözünü, ümumiyyətlə, işlətməmək. Çünki Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Ermənistan da bunu belə qəbul etməlidir və bizimlə sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmalıdır”.**

## Tarif Şurası təbii qaz tarifi ilə bağlı qərar qəbul edib



**İyunun 30-da Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib. İclasda Dövlət Neft Şirkətinin (SOCAR) müraciətinə baxılaraq müvafiq qərar qəbul edilib.**

Tarif (qiymət) Şurasının Katibliyindən AZƏRTAC-a bildirilib ki, Dövlət Neft Şirkəti Şuraya müraciət edərək ölkədə təbii qazın topdansatış və pərakəndə satış qiymətlərinin artırılmasını təklif edib. Müraciətdə təbii qazın tarifinə yenidən baxılmasına səbəb kimi istehlakın artması, qaz təchizatının əhatə dairəsinin genişləndirilməsi və abonentlərinin sayının 18 faizədək artması nəticəsində xərclərin yüksəlməsi göstərilir. Əhali üzrə tarifin aşağı olması və son tarif tənzimlənməsinin qüvvəyə mindiyi 2017-ci illə müqayisədə ölkəmizdə bir əhali abonenti üzrə istehlakın həcminin təxminən 1,3 min kubmetrdən 1,6 min kubmetrə, ümumi istehlak həcminin isə 2,7 milyard kubmetrdən 3,7 milyard kubmetrə yüksəlməsi qaz təchizatı fəaliyyəti üzrə zərərin daha da artması ilə nəticələnir ki, həmin məbləğ dövlət büdcəsi hesabına qarşılanır. Xidmət səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsindən asılılığın aradan qaldırılması və investisiya qoyuluşlarının təmin edilməsi, eləcə də istehlak edilən təbii qazın istehsal və təchizat xərclərinin tam ödənilməsi üçün tariflərin artırılmasına zərurət yaradıb.

**Tarif (qiymət) Şurasının iclasında aparılan müzakirələrdə təklif olunan müxtəlif tarif artımı variantları nəzərdən keçirilib. Təklif edilən modellər dövlətin iqtisadi siyasətinə uyğun olaraq enerji təhlükəsizliyinin dayanıqlılığının təmin olunması, resurslardan məqsədyönlü və səmərəli istifadə edilməsi, istehlakçı və istehsalçı maraqlarının uzlaşdırılması, iqtisadi əlverişlilik, sosialyönümlülük, qaz təchizatı sahəsində bazar münasibətlərinin mərhələli şəkildə formalaşdırılması və dövlət büdcəsindən subsidiyalaşdırmanın aradan qaldırılması, təbii qazın digər ölkələr üzrə qiymətləri və sair kimi məsələlər nəzərə alınmaqla dəyərləndirilib.**

Şura üzvlərinin yekdil qərarı ilə dövlətin həyata keçirdiyi sosialyönümlü siyasət əsas götürülərək əhalinin aztəminatlı hissəsinin mənafelərinə uyğun olan modelə üstünlük verilib. Belə ki, tarif tənzimləməsində optimal yanaşma tətbiq olunmaqla əhali abonentlərinin təxminən 51 faizini (5 milyon nəfər) əhatə edən istehlakçılar üzrə təbii qazın illik istehlak həcminin 1200 kubmetrədək (1200 kubmetr daxil) olan hissəsi üçün tarif dəyişdirilməyib və hazırkı (1 kubmetr üçün 10 qəpik) səviyyədə saxlanılıb. İstehlak edilən qazın 1200-2500 kubmetr (2500 kubmetr daxil) olan hissəsi üçün 1 kubmetr üçün 20 qəpik, 2500 kubmetrdən çox olan hissəsi üçün isə 25 qəpik müəyyənləşdirilib. Qeyd edilməlidir ki, əhali abonentləri üçün müəyyən olunan tarif sistemi böyük sahəyə malik yaşayış evlərini daha qənaətcil istilik sistemlərindən istifadəyə sövq edəcək.

İclasda aztəminatlı əhali təbəqəsi üçün kommunal tariflərin artırılmasının həmin təbəqənin gəlirlərinin artırılması istiqamətində atılan addımlarla uzlaşdırılmasının önəmi qeyd edilib.

**Qəbul edilmiş tarif artımı modeli bir sıra sahələr üçün güzəştli tarif sisteminin saxlanılmasını nəzərdə tutur. İqtisadi dirçəlişin təmin edilməsi məqsədilə sənaye və kənd təsərrüfatı sahələrinə verilən təbii qazın tarifi bu mərhələdə dəyişdirilməyərək mövcud 20 qəpik səviyyəsində saxlanılıb. Həmçinin təbii qazdan istifadə edilməklə hasil olunan elektrik enerjisi üzrə tarif artımına yol verməmək üçün elektrik stansiyalarına verilən təbii qazın tarifi cəmi 1 qəpik artırılmaqla 12 qəpikdən 13 qəpiyə dəyişdirilib.**

Təbii qaz əsasında fəaliyyət göstərən istilik təchizatı sisteminin fəaliyyətinin dayanıqlığının təmin edilməsi, habelə ölkə vətəndaşlarının istilik sistemindən istifadə xərclərinin optimallaşdırılması məqsədilə “Azəristiliktəchizat” ASC və yaşayış binalarının məhəllə qazanxanaları üzrə təbii qaz tarifi 20 qəpikdən 13 qəpiyə endirilib.

Bununla yanaşı, ekoloji təmiz yanacaq növlərinə keçidi stimullaşdırmaq və sıxılmış təbii qazdan (CNG) istifadə edən ictimai nəqliyyat vasitələrinin xərclərini azaltmaq məqsədilə qazın satışını həyata keçirən qazdoldurma məntəqələrinə verilən təbii qazın tarifi 20 qəpikdən 13 qəpiyə endirilib.

Digər sahələrdə (ticarət, xidmət və sair) rentabelli fəaliyyət təbii qazın tarifindən daha az asılı olduğu üçün tariflər 5 qəpik artırılıb.

**Qərar 2021-ci il iyulun 1-dən qüvvəyə minir.**

**Səttar Möhbalıyev:**

“Qələbəmiz Silahlı Qüvvələr Gününü daha da şərəfləndirdi”

BAX SƏHİFƏ: 2

Hər biri bir aslandır bu OĞULLARIN



BAX SƏHİFƏ: 2

Arzuladığımız günü siz bizə bəxş etdiniz

BAX SƏHİFƏ: 3

Şuşa Bəyannaməsindən sonra Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin bir daha yüksəlişi

BAX SƏHİFƏ: 6

Geri qaytardığımız torpaqlarımızın adlarını da “azad” etməliyik

BAX SƏHİFƏ: 6

## Koronavirus infeksiyasından daha 26 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 26 nəfər müalicə olunaraq sağalıb, 86 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 336 min 47 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 330 min 219 nəfər müalicə olunaraq sağalıb, 4974 nəfər vəfat edib. Aktiv xəstə sayı 865 nəfərdir.

**Ötən müddət ərzində 3 milyon 749 min 303 test aparılıb. Bugünkü test sayı isə 8871-dir.**

**Hüquq məsləhətxanası**



BAX SƏHİFƏ: 8

**Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!**

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

**Konfransın birinci seqmenti başa çatıb**

BAX SƏHİFƏ: 7

**“Zenit” İC-nin yetirməsi Avropa çempionu olub**

BAX SƏHİFƏ: 8

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ



# Səttar Möhbalıyev: *“Qələbəmiz Silahlı Qüvvələr Gününü daha da şərəfləndirdi”*

**“Bu il ilk dəfədir ki, 26 İyun - Silahlı Qüvvələr Gününü fərqli əhval-ruhiyyədə qeyd edirik. Ötən il Silahlı Qüvvələrimiz 30 il düşmən tapdağında qalan torpaqlarımızı böyük rəşadətlə azad etdi və üzərinə düşən vəzifəni uğurla yerinə yetirdi. Beləliklə, Ordumuzun bu Qələbəsi Silahlı Qüvvələr Gününü daha da əzəmətli etdi və şərəfləndirdi. Dövlətin əsas atributu kimi Silahlı Qüvvələrimizin cəmiyyətdə rolu və nüfuzu daha da artdı”.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Səttar Möhbalıyev bildirib ki, yarandığı vaxtdan - 1918-ci ilin iyunun 26-dan bu günədək Azərbaycan Ordusu müdafiə missiyası yerinə yetirib. Heç vaxt təcavüzkar addım atmayıb. 1918-ci il mayın 28-də qəbul olunan Azərbaycanın İstiqlal Bəyannaməsində göstərilirdi: “Xarici müdaxilələrdən qorunmaq, daxili düşmən qüvvələrini zərərsizləşdirmək məqsədilə silahlı qüvvələr yaradılır”. Həmçinin 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında ölkənin təhlükəsizliyi və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələrin yaradılması öz əksini tapıb. Keçdiyi tarixi yola nəzər salanda görünür ki, Azərbaycan Ordusu işğala, xarici qüvvələrin müdaxiləsinə qarşı mübarizə aparıb, dövlət suverenliyinin qorunmasına xidmət edib. 1918-ci ildə Milli Ordunun Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından azad etməsi, Birinci və İkinci Qarabağ müharibələri bunun bariz nümunələridir.

**Bu gün Azərbaycan Ordusunun dünyanın ən güclü orduları sırasında durduğunu deyən deputat bunun asan başa gəlmədiyini, Ümummilli Liderin apardığı ardıcıl siyasətin nəticəsi olduğunu qeyd edib. O deyib: “1971-ci ilin iyununda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılmasını xatırlamaq yerinə düşər. O dövrdə hərbi təyinatlı məktəbin yaradılması o qədər də asan deyildi. Bu təşəbbüs rəsmi Moskvanın ciddi narazılığına, müxtəlif irad və maneələrinə səbəb oldu, lakin bütün bu maneələrə baxmayaraq, Azərbaycanın həmişə gələcəyini düşünən, bu yolda heç nədən çəkinməyən ulu öndər Heydər Əliyevin qətiyyəti, əzmkarlığı sayəsində məktəbin yaradılmasına nail olundu. Bununla da hərbçi peşəsinin nüfuzu artmağa başladı, peşəkar hərbçilərimizin sayı çoxaldı. O vaxt bu məktəbi bitirən yüzlərlə gənc Bakının ali hərbi məktəbləri ilə yanaşı, SSRİ-nin ali hərbi təhsil ocaqlarında hərbçi peşəsinə sahib oldu. Müstəqillik əldə etdikdən sonra isə biz bu məktəbin yaradılmasının nə qədər əhəmiyyətli olduğunu daha yaxşı dərk etdik. Ordu quruculuğu sahəsində məhz həmin məktəbin məzunları mühüm rol oynayıblar”.**

S.Möhbalıyev Azərbaycanın Silahlı Qüvvələrinin yaradılmasının, möhkəmləndirilməsinin və inkişafının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayaraq deyib: “1993-cü ildə xalqın tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan Heydər Əliyevin dövlət quruculuğu yolunda atdığı ilk addımlardan biri Azərbaycan Ordusunun yaradılması oldu. O vaxta qədər isə ordu quruculuğu istiqamətində heç bir uğurlu addım atılmamışdı. Ermənistan dövlətinin davam edən hərbi təcavüzünün qarşısını almaq üçün heç bir tədbir görülmürdü. Səriştəsiz, qeyri-peşəkar rəhbərlərin laqeyd münasibəti nəticəsində konkret şəxslərin məhdud siyasi maraqlarına xidmət edən, xarici qüvvələrin əlində oyuncaq olan silahlı dəstələr var idi ki, onların da fəaliyyəti ölkənin parçalanmasına gətirib çıxarırdı. Lakin Ulu Öndərin dövlətçilik təcrübəsi, sərkərdəlik məharəti, xalq içərisində olan inamı və hörməti ordunun yenidən qurulmasına kömək etdi. Yerli özünümüdafiə və könüllü batalyonları adı altında fəaliyyət göstərən siyasi birləşmələr ləğv olundu, hərbi hissələr təşkil edildi, vahid komandanlığa tabe olan nizami ordu yaradıldı. Ulu Öndər şəxsən cəbhə bölgələrinə getdi, hərbçilərimizi düşmənə qarşı döyüşə ruhlandırdı. Məhz bunun nəticəsi olaraq Azərbaycan tarixinin şanlı səhifəsi olan uğurlu Horadiz əməliyyatı keçirildi və qələbələrimizin əsası qoyuldu”.

Deputat Azərbaycan Ordusunun uğurları sırasında Prezident İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin aprelində Ağdərə, Füzuli, Cəbrayıl istiqamətlərində və 2018-ci ildə Naxçıvanda həyata keçirilən əməliyyatların xüsusi əhəmiyyət daşıdığını vurğulayaraq, düşmənə endirilən sarsıdıcı zərbələri yada salıb, bu əməliyyatların Azərbaycan xalqının hərbi məğlubiyyətə barışmayacağının göstəricisi olduğunu deyib. “Silahlı Qüvvələrimiz qarşısında ən böyük sınaq isə 2020-ci il sentyabrın 27-də başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsi oldu. Azərbaycan Ordusu qorxmadan, çəkinmədən böyük şücaət göstərərək, çətin iqlim və ağır relyefdə hər qarış torpağımız uğrunda mübarizə apardı. İstər meşə, istər dağ, istərsə də şəhər döyüşlərində Ordumuz misilsiz qəhrəmanlıq göstərdi və bütün növ döyüş qabiliyyətinə hazır olduğunu nümayiş etdirdi. Silahlı Qüvvələrimizin həyata keçirdiyi hərbi əməliyyatların strategiyası və taktikası tanınmış ekspertlər tərəfindən araşdırılır, dünyanın aparıcı hərbi məktəblərində təhlil və tədris olunur. Bütün bunlar, Prezident, Ali Baş Komandan İlham Əliyev başda olmaqla, Azərbaycan əsgərinin uğurudur. Müharibə nəticəsində işğal altındakı torpaqlarımız tamamilə azad olundu, Ermənistan ordusu sıradan çıxarıldı, təcavüzkarın işğalçılıq arzuları və faşist düşüncəsi məhv edildi. Bundan başqa, bölgənin və regionun siyasi mənzərəsi dəyişdi, siyasi-iqtisadi reallıqlar yarandı, yeni infrastruktur layihələri ortaya çıxdı. Görünür ki, Azərbaycan Silahlı Qüvvələri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün region üçün xilaskarlıq missiyasını icra edib və bölgənin yeni inkişaf strategiyasının əsasını qoyub. Azərbaycan müharibə başa çatandan dərhal sonra işğaldan azad olunmuş ərazilərdə abadlıq və quruculuq işlərinə başlayıb. Yeni avtomobil yolları çəkilir, hava limanları tikilir, müasir kənd və qəsəbələr salınır. Zəngəzur dəhlizinin açılması Naxçıvanla respublikamızın əsas ərazisini birləşdirəcək, həmçinin oradan keçəcək nəqliyyat xətləri bölgə ilə yanaşı, regionun da inkişafına böyük töhfə verəcək.

***Beləliklə, Azərbaycanın apardığı bərpa-quruculuq işləri, həyata keçirdiyi iri layihələr bölgənin inkişafına gətirib çıxaracaq, oraya qayıdacaq sakinlərin rahat və xoşbəxt yaşaması üçün əlverişli olacaq”,- deyə S.Möhbalıyev qeyd edib.***

# Hər biri bir aslandır bu OĞULLARIN

***Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi 26 İyun Silahlı Qüvvələr Gününü Füzuli rayonunun Horadiz qəsəbəsində yerləşən Sərhəd Qoşunlarının “N” saylı hərbi hissəsində qeyd etdi***



**“Vətənin hər qarışı hər birimizindir. Biz üçümüz də I və II Qarabağ müharibələrinin iştirakçılarıyıq”, - deyə Sərhəd Qoşunlarının Horadizdə yerləşən “N” saylı hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini, polkovnik-leytenant Babək Nəbiyev bildirdi.**

**Yanında əyləşən iki polkovnik-leytenantı göstərərək sözünə davam etdi: “Hərəmiz Vətənin bir regionunda doğulub böyümüşük. Bax, qardaşlarım Cəmil Sultanov Qusardan, Murad Məmmədquliyev Şabrandan cəbhəyə gəliblər. Mən də Qərbi Azərbaycanda doğulub böyümüşəm.**

Döyüşlərin ən qanlı məqamlarında vuruşmuşuq. Çox sayda düşməni cəhənnəmə göndərmişik. Gözümüzün önündə dost itirmişik. Televiziyalarda, qəzetlərdə, jurnallarda özünü qəhrəman, nə bilim romalılara qarşı vuruşmuş basılmaz xalq kimi təbliğ edən erməni gəncləri açıq döyüş meydanında qarşımızdan, necə deyərlər, it kimi quyruqlarını qısıb qaçıblar. Qaçmaq imkanları olmayanda isə müti görkəm alıb: “Ara, Qarabağ azərbaycanlılarındır”, - deyiblər. Bir qaşıq qana görə alçalıblar. Amma mənim şir ürəkli qardaşlarım: “Bir balakənli qardaşımız vardı. Milliyyətcə tabasaran idi. Mühasirəyə düşdü. Artıq ermənilər onu əsir alacaqdılar. Tapançasının son gülləsini çənəsinin altına dirədi, atəş açdı. Erməni əsirliyindən şəhadəti üstün tutdu.

**Babək şəhid olmuş cəbhə dostlarının hər biri haqqında kədərlə yox, iftixarla danışdı.**

Elə mən də, polkovnik-leytenantın ölüm-itimlə müşahidə olunan söhbətinə iftixarla qulaq asırdım. Sanki o fədakar hərbçilərimizlə birlikdə döyüş meydanında idim. Nə güllə, nə də topların yaydığı qəlpə qorxusu vecimə gəlmirdi.

Qəfil bir səs məni və həmsöhbətimi o aləmdən ayırdı: “gəlin, tədbir başlayır”.

Polkovnik-leytenantlar və mən “N” saylı hərbi hissənin park mənzərəsi bağışlayan ərazisinə yollandıq. Əsgərlər, az sayda mülki şəxslər və daha bir neçə azyaşlı uşaq səliqə ilə düzülmüş skamyalarda əyləşib gözlərini səhnəyə dikmişdilər. İndicə səhnəyə Bakıdan gələn musiqiçilər, müğənnilər çıxacaqdılar. Hələlik isə xidmət yoldaşları sıravi əsgər İlyas Hacızadə klarnetdə bir-birinin ardınca könüloxşayan lirik mahnılar ifa edirdi.

**Nəhayət, aparıcı mikrofon qarşısına keçdi. Dedi ki, 26 iyun milli ordumuzun yaranması gününə həsr olunmuş bu tədbir Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə təşkil olunmuşdur. Bu günü sizinlə birlikdə qeyd etməyə Respublika Komitəsinin əməkdaşları ilə bərabər, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) tələbələri və işçiləri də gəlmişlər.**

Aparıcı hərbi hissənin əsgər və zabit heyətinə AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin və ADMİU-nun rektoru Ceyran Mahmudovanın salamlarını və təbriklərini çatdırdı. Söz musiqiyə verildi. “Xudayar təsnifi”, “Vətən haqqında”, “Çırpınırdı Qara dəniz” mahnıları hərbçilərin qəlbini riqqətə gətirdi.

Hərbçilərin ucalara qaldırıb yellədikləri üçrəngli, ay-ulduzlu bayraqlarımızın altında səslənən mahnılar Horadizin ətrafında keşik çəkən dağlara da aşıb keçdi.

**Coşqu artdıqca müğənnilər səhnədə duruş gətirə bilmədilər. Sinələrindən gələn nəğmələri hərbçilərlə bölüşmək həvəsi ilə səhnədən aşağı endilər.**

Musiqiçilər qol qaldırıb əsgərlərlə rəqs etdilər. Çox az vaxtdan sonra musiqi hərbçilərlə musiqiçiləri doğmalaşdırdı.

**Tədbirdə çıxışlar da oldu. Hərbi hissənin komandiri polkovnik Zəfər Bayramov, hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini, polkovnik-leytenant Babək Nəbiyev qonaqlara xoşgəldin etdilər. Qonaqları əmin etdilər ki, ordumuz, o cümlədən sərhədçilərimiz Vətənin keşiyində əzmlə durublar. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, komandanlığı altında da qarı düşmən çökdürülüb, darmadağın olunub. Sərhədlərimizin delimitasiyası sərhədçilərimizin iştirakı ilə xəritəyə uyğun aparılır. Düşmənin bütün hərəkətləri tam nəzarətimiz altındadır.**



Hərbçilərimiz üçün hərbi hissələrdə, postlarda hər cür şərait yaradılıb. Ən müasir hərbi ləvazimatlar sərəncamımızdadır.

Müntəzəm keçirilən təlimlər ordumuzun döyüş qüdrətini get-gedə daha da artırır.

Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə çıxış etdi, o cümlədən həmkarlar ittifaqlarının ordumuza inamının böyük olduğunu söylədi. Dedi ki, biz qələbəyə Vətən müharibəsinin elə ilk günündən əmin idik.

Xalq ordumuzun döyüş hazırlığına, şücaətinə, qələbə təşnəsinə şübhə etmirdi. Arxayın idik ki, Ali Baş Komandan nəyi, nə vaxt, necə edəcəyini bilir.

**Atalarımız deyib ki, xalq bir olsa, zərbi kərən sındırar. Zəfərimizin başlıca amili o oldu ki, cənab İlham Əliyev bu birliyi öz ədalətli rəhbərliyi sayəsində yaratmağı bacardı.**

Mirzə müəllim AHİK sədri, millət vəkili Səttar Möhbalıyevin təşəbbüsü, təklifi ilə yaradılmış həmkarlar ittifaqı - ordu əlaqələrindən də geniş danışdı. Bildirdi ki, əvvəla, həmkarlar ittifaqı əməkdaşlarından xeyli sayda gənc və cavan könüllü olaraq cəbhəyə yollandı. Təşkilatımızın bütün strukturları, xüsusilə cəbhə bölgəsində çalışan əməkdaşlarımız səylərini cəbhəyə yönəltdilər. Orduya mənəvi və maliyyə dəstəyi göstərdilər.

M.Cəfərzadə çıxışını vətənpərvər şüarlarla yekunlaşdırdı.

Hərbi hissə komandanlığı, başda S.Möhbalıyev olmaqla, Respublika Komitəsinin bir neçə əməkdaşına, mənəvi dəstəyə görə, Fəxri Fərman təqdim etdi. Respublika Komitəsi də hərbi hissəyə hədiyyəsiz gəlməmişdi. Sərhədçilərə 3 ədəd iri ekranlı televizor dəsti bağışladı.

Yeri gəlmişkən qeyd edim ki, görüşə Füzuli rayonundan I Qarabağ müharibəsinin 7 qazisi dəvət olunmuşdu. Onlara TİAHİ Füzuli Rayon Komitəsinin Fəxri fərmanları və qiymətli hədiyyələr verildi.

**Yazının əvvəlində üç igid polkovnik-leytenantla söhbətimizi təqdim etmişdik. Olduğumuz hərbi hissədə neçə-neçə onlar kimi qəhrəman övladımız xidmət edir. Belə oğulları olan xalqın qarşısında dağ da davam gətirməz!**



**B.RZAYEV**

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevə

**Hörmətli Səttar müəllim,**

Bildirmək istəyirəm ki, "Günəşli" nevroloji sanatoriyasında 14 günlük müalicə və səmərəli istirahət sayəsində səhhətimdə müsbət irəliləyiş olub. Müalicə olunduğum müddətdə burada insanlara necə nəvaziş və xoş rəftar göstərildiyini gördüm. Belə isti münasibət isə səhhətimizə olduqca gözəl təsir bağışlayır. Sanatoriyanın bütün heyətindən çox razıyıq.

**Həmkarlarınıza, işçilərə, üzvlərinizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə öz təşəkkürümü bildirirəm.**

**Rəşad NİYAZOV**

# Arzuladığımız günü siz bizə bəxş etdiniz



**Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqi Respublika Komitəsinin əməkdaşları 26 İyun - Silahlı Qüvvələrin Günü münasibətilə Mingəçevirdə yerləşən "N" saylı hərbi hissələrdə əsgərlərlə görüşmüşlər.**

Görüşlər zamanı Respublika Komitəsinin sədri Hikmət Osmanov əlamətdar gün münasibətilə Müzəffər Azərbaycan Ordusunun keçdiyi inkişaf yolundan danışdı. Dedi ki, hələ ötən ilə qədər biz bu günü qeyd edərkən, deyirdik ki, gün gələcək öz doğma torpaqlarımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan xalqı öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etdi. Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Bizim şəhidlərimizin qanı yerdə qalmadı. Qarabağ müharibəsi Ali Baş Komandanımızın "Dəmir yumruğu" və Müzəffər Ordumuzun qətiyyəti ilə 44 gün ərzində Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Bu gün biz qürurla, fəxrlə deyirik: Bayramın mübarək, Azərbaycan Əsgəri!

"N" saylı hərbi hissələrin komandirləri - Vətən müharibəsinin qəhrəmanı polkovnik Elnur Qəbədov, "Vətən uğrunda" medalla təltif olunmuş, polkovnik-leytenant Zamin Musayev Hikmət Osmanova əsgərlərə göstərdiyi diqqət və qayğıya görə təşəkkürlərini bildirdilər.

**Tədbirin sonunda əsgər və zabitlərə gündəlik istifadə üçün ləvazimatlar hədiyyə edildi və xatirə şəkilləri çəkdirildi.**

# Vitse-prezident vəzifəsinə namizədliyi irəli sürüldü



**İyunun 21-28-də Azərbaycan Metal İşçiləri Həmkarlar İttifaqı Federasiyasının prezidenti Bəkir Yusifov Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının İcraiyyə Komitəsinin Ankara şəhərində keçirilmiş iclaslarında və tədbirlərində iştirak edib.**

B.Yusifov Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının Baş katibi Yusuf Ziya Odabaş və Baş katibin müavini Turacon Raupov ilə ikitərəfli görüşlər keçirib.

Görüşlərdə metallurgiya sənayesi müəssisələrində əməyin mühafizəsi, işçilərin sosial müdafiəsinin təşkilində həmkarlar ittifaqının rolu, gənclərin həmkarlar ittifaqı işinə cəlb olunması, gender bərabərliyi, işçilərin sağlamlığının qorunması, kollektiv müqavilələrin bağlanması üzrə danışıqların aparılması barədə fikir mübadiləsi edilib. Qərara gəlinib ki, hər iki tərəf bu sahələrdə əldə etdikləri təcrübəni müxtəlif formatlı tədbirlər, görüşlər keçirməklə bölüşsünlər.

**B.Yusifov iyunun 30-da Beynəlxalq Avrasiya Metal İşçiləri Federasiyasının Mərkəzi Komitəsinin onlayn formatda keçirilən 51-ci iclasında da iştirak edib. İclasda Federasiyanın prezidenti Pevrul Kavlak Federasiyanın vitse-prezidenti vəzifəsinə, növbəti qurultayda təsdiq edilməsi üçün, B.Yusifovun namizədliyini irəli sürüb.**

# Qazilərlə görüş



**İyunun 24-də Respublika Baş Prokurorluğunun yeni inzibati binasında Vətən müharibəsi qaziləri ilə görüş keçirilib. Respublika Baş Prokurorluğu Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin və "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteranları və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin birgə təşkilatçısı olduğu bu tədbir Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial muzeyin ziyarəti ilə başladı.**

Sonra tədbir iştirakçıları Respublika Baş Prokurorluğunun Elmi Tədris Mərkəzinə toplaşdılar. Burada Vətən müharibəsində şəhid olan əsgər və zabitlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olundu. "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri və Vətən müharibəsinin iştirakçıları Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 44 gün davam edən Vətən müharibəsi zamanı yenilməz Azərbaycan Ordusunun zabit və əsgərlərinin şücaətindən və qəhrəmanlıqlarından danışdılar.

**Tədbirin yekununda Vətən müharibəsi iştirakçılarına İctimai Birlik tərəfindən hədiyyələr verildi və xatirə fotoşəkli çəkildi.**

# "Zəfər" lövhəsinin açılışı olub

**İyunun 25-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə bu ali məktəbin İkinci Qarabağ müharibəsi iştirakçısı olan əməkdaş, tələbə və məzunlarının, eləcə də şəhidlərinin şərəfinə hazırlanmış "Zəfər" lövhəsinin açılışı olub.**




Tədbiri universitetin rektoru, professor Ceyran Mahmudova açaraq İkinci Qarabağ müharibəsində ADMİU-nun 50-dən çox nümayəndəsinin iştirak etdiyini və şərəflə döyüşdüklərini söyləyib: "Onların arasında əməkdaşlar, tələbə və məzunlar var. Üç məzunumuz şəhidlik zirvəsinə ucalıb. Bir sıra döyüşçülərimiz Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən medallarla təltif olunub. Biz, universitet olaraq, onların hər biri ilə fəxr edirik. Müharibə dövründə olduğu kimi, indi də onlardan dəstəyimizi əsirgəmirik".

Rektor iyunun 24-də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə medallarla təltif olunmuş ADMİU-nun Vətən müharibəsi iştirakçılarını universitetin kollektivi adından təbrik edib.

**ADMİU-nun prorektoru, professor Gülşən Əliyeva-Kəngərli bildirib ki, 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən torpaqlarımız erməni işğalından azad olundu və biz Vətən müharibəsində şanlı Qələbə qazandıq. Şəhidlik də, qazilik də şərəf zirvəsidir. İgid oğullarımız özlərini düşünmədən bu zirvəyə atıldılar və qalibiyyət qazandılar.**

Universitetin prorektoru Təriqəddin Həmidov, Rəssamlıq fakültəsinin dekanı Sevil Kərimova, dosent Nigar Rüstəmova, professorlar Əli Əmirli və Gülşad Baxşıyeva, ADMİU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri Səyavuş Məhişov qeyd ediblər ki, bundan sonrakı nəslin əsas məqsədi Azərbaycan Ordusu və xalqı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış bu möhtəşəm Qələbəyə layiq olmaq və torpaqlarımızı qorumaqdır.

Tədbirdə ADMİU-nun Vətən müharibəsi iştirakçıları Azər Həsənov, Şahmar Məmmədov, Tərlan Əsgərli, Röyal Allahverdiyev, Ceyhun Əlizadə, Əli Səlimov, Cavid Arzumanov, Xankişi Bağırov çıxış edərək həm tələbəlik, həm də Vətən müharibəsi dövründə universitet rəhbərliyindən daim diqqət və qayğı gördüklərini bildirib, ADMİU-da "Zəfər" lövhəsinin yaradılmasını yüksək dəyərləndiriblər.

***Sonda döyüşçülərə ADMİU tərəfindən hədiyyələr təqdim olunub.***

# 20 şəhid ailəsinə ərzaq yardımı aparılıb



**İkinci Qarabağ müharibəsində 2900 nəfər hərbi qulluqçusu şəhid olmuş, yüzlərlə döyüşçümüz yaralanmışdır.**

Müharibədən sonra Azərbaycan dövləti şəhid olmuş və yaralanmış hərbi qulluqçuların ailələrinə diqqət və qayğı göstərir. Onlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif dərəcəli orden və medallarla təltif edilmişlər. Şəhid ailələrinə dövlət tərəfindən maddi yardımlar edilmişdir.

**Bu təşəbbüsə qoşularaq Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının və Nəsimi Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Nəsimi rayonunda 20 şəhid ailəsinə 18 çeşiddə ərzaq yardımı edilmişdir. Ərzaqların təqdim olunması mərasimində Azad Həmkarlar İttifaqının sədri, professor Habil Qurbanov, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov iştirak etmişlər. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmiş, dövlətin və ictimaiyyətin onlara daima göstərdiyi qayğıdan razılıqlarını ifadə etmişlər.**

# *Rabitəçi qazilərin övladları üçün yelkənli idman növünə dair təlim keçirilib*



**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi, Azərbaycan Yelkənli İdman Federasiyası və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin birgə təşkilatçılığı ilə şəhidlərin və rabitəçi qazilərin övladları üçün yelkənli idman növünə dair təlim keçirilib.**

8-16 yaşlı 20 iştirakçının qatıldığı təlim 25 İyun - Dənizçi Günü və Azərbaycan Respublikasında telefon rabitəsinin yaradılmasının 140 illiyinə həsr edilib. Məqsəd uşaqların yelkənli idmanla tanış olması, bu idman növünə maraq və istəyin aşılanması, yelkənli qayıqların idarə edilməsi barədə məlumatlandırılması olub.

Tədbirdə şəhidlərin və rabitəçi qazilərin övladlarına yelkənli qayıqdan istifadə qaydaları, açıq dənizdə küləklə mübarizə, küləyin istiqamətinin seçilməsi, qayıqların təhlükəsiz idarə edilməsi üsulları öyrədilib. Eyni zamanda açıq dənizdə yelkənli qayıqlarla gəzintinin, sahildə əyləncəli oyunların təşkili uşaqların sevincinə səbəb olub.

# Xalqımızın qəlbində əbədi yaşayacaq



**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin nümayəndələri 26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olmuş əməkdaşların ailələrini ziyarət ediblər. Onlar şəhid ailələrinin qayğıları ilə maraqlanıblar.**

Görüşdə şəhidlik zirvəsinə ucalmış nazirlik əməkdaşları haqqında xoş təəssüratlar bölüşülüb. Qeyd olunub ki, hər bir şəhidimiz xalqımızın qəlbində əbədi yaşayacaq.

Şəhid ailələri torpaqlarımızın erməni işğalından azad olunması ilə şəhidlərimizin qanının yerdə qalmadığını, qisaslarının alındığını bildiriblər.

**Qeyd edək ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və onun tabeli qurumları, həmçinin həmkarlar ittifaqı təşkilatı şəhid ailələrini daim diqqətdə saxlayır.**

# Təhsil naziri Həmkarlar İttifaqının yubiley döş nişanları ilə təltif olunub



**İyunun 25-də təhsil naziri Emin Əmrullayev Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının (ATİAHİ) nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan Həmkarlar İttifaqları və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının keçdiyi tarixi inkişaf yolundan, həmkarlar ittifaqı üzvlərinin gördüyü işlərdən, təşkilatın beynəlxalq əlaqələrindən danışılıb.

Emin Əmrullayev Təhsil Nazirliyi və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi arasında səmimi əməkdaşlıq münasibətlərinin gələcəkdə daha da inkişaf etdiriləcəyindən əminliyini ifadə edib. Görüş zamanı Təhsil Nazirliyi və Respublika Komitəsi arasında 2021-2023-cü illər üzrə imzalanması nəzərdə tutulan Kollektiv Sazişdə öz əksini tapacaq məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**Görüşün sonunda təhsil naziri Emin Əmrullayevə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Azərbaycan Həmkarlar İttifaqları - 115 il" və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının "ATİAHİ 100 il" yubiley döş nişanları təqdim olunub.**

# Mayasında milli köklərə bağlılıq durur

**Azərbaycan Milli Kulinariya Mərkəzinin baş direktoru Tahir Əmiraslanov Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Azərbaycan həmkarlar ittifaqı hərəkatında göstərdiyi xidmətlərinə görə "Azərbaycan Həmkarlar İttifaqları - 115 il" Yubiley döş nişanı ilə təltif olunmuşdur.**




Döş nişanının təqdim olunması münasibətilə iyunun 24-də tədbir keçirilmişdir.

**Tədbiri giriş sözü ilə "Xidmət-İş" Həmkarlar İttifaqları Federasiyasının vitse-prezidenti Xəyyam Nəsibov açdı. Tədbir iştirakçılarına Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevin salamlarını çatdırdı. Xəyyam müəllim bildirdi ki, Azərbaycan Milli Kulinariya Mərkəzi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının həmişə diqqətində olub.**

Mərkəz təsis olunduğu gündən elmi yanaşmaya üstünlük vermiş, milli mətbəximiz tarixi köklərini araşdırmış, əldə olunan nəticələri kitablarda toplayaraq cəmiyyətimizə təqdim etmişdir. Azərbaycan milli mətbəxinin dünya miqyasında özünəməxsus yer tutması baxımından böyük işlər görmüşdür. Mərkəzin bütün uğurlarının və keçirdiyi tədbirlərin mayasında milli köklərə bağlılıq və onların yerli, beynəlxalq səviyyədə təbliği durur. "Xidmət-İş" Hİ Federasiyası Mərkəzin fəaliyyətini hər zaman dəstəkləyib, nailiyyətlərinə sevinib. Daha böyük uğurlar qazanmaları üçün gələcəkdə də köməyimizi əsirgəməyəcəyik.

**Sonda X.Nəsibov "Azərbaycan Həmkarlar İttifaqları - 115 il" Yubiley döş nişanını və hədiyyələri təqdim etdi, kollektivə işlərində yeni uğurlar dilədi.**

# Bakı şəhərinin rayonları üzrə 11 Tibbi Mərkəz yaradılıb



**Ölkəmizdə icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Bakı şəhərində yerləşən tibb müəssisələrindəki struktur dəyişikliklərin hazırdakı vəziyyətinin öyrənilməsi məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi İddialar Departamentinin rəhbəri Vüqar Qurbanovun iştirakı ilə Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində görüş keçirilmişdir.**

Görüşdə Bakı şəhəri rayonlarının həmkarlar ittifaqı şura sədrləri, Kliniki Tibbi Mərkəzin, Mərkəzi Neftçilər Xəstəxanasının və Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının HİK sədrləri də iştirak etmişdir.

V.Qurbanov bildirmişdir ki, aprelin 1-dən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tibb müəssisələrində bir sıra struktur dəyişiklikləri həyata keçirir. Əsas məqsəd tibbi xidmətin əhali üçün əlçatan olması və keyfiyyətin artırılmasıdır.

Səhiyyə sistemində aparılan islahatlar çərçivəsində Agentlik tərəfindən Bakı şəhərinin rayonları üzrə 11 Tibbi Mərkəz yaradılıb.

**Aparılan struktur dəyişikliyinə əsasən, paytaxtda çoxprofilli stasionar və ixtisaslaşdırılmış poliklinik xidmət göstərən tibb müəssisələri müvafiq ərazi üzrə tibb müəssisələrinin tabeliyinə verilib.**

Nəsimi rayonu üzrə fəaliyyət göstərən 1 saylı Kliniki Tibbi Mərkəzin bazasında Nəsimi,Yasamal, Səbail rayonları üzrə tibb müəssisələrini birləşdirən Kliniki Tibbi Mərkəz yaradılıb.

Digər inzibati ərazilər üzrə isə Nərimanov, Nizami, Sabunçu, Binəqədi,Suraxanı, Qaradağ (Lökbatan), Xətai, Pirallahı və Xəzər tibb mərkəzləri təsis olunub.

**Qaradağ rayonunun ərazisinin böyüklüyü ilə bağlı və sakinlərin əlçatanlığını təmin etmək məqsədilə sözügedən rayon üzrə 2 tibb mərkəzi (Lökbatan, Qaradağ) yaradılıb.**

V.Qurbanov həmçinin Ailə və Sağlamlıq mərkəzlərinin inkişaf etdiriləcəyi, tibb müəssisələrinin müasir tibb avadanlıqları ilə təmin olunacağını bildirmişdir.

V.Qurbanov struktur dəçikliyi barədə tədbir iştirakçılarını maraqlandıran suallara aydınlıq gətirmişdir.

**Sonda Respublika Komitəsinin sədri Emin Əfəndiyev struktur dəyişikliyi aparılarkən işçilərin ixtisar edilməməsini və yaş həddinə görə işdən çıxarılmış peşə yararlılığı olan tibb işçilərinin işə cəlb edilməsinin nəzərə alınmasını bildirmişdir.**

**Elnarə MURADOVA,**
**Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Təşkilat şöbəsinin müdiri**

# "Döyüş əzmimiz inanılmaz dərəcədə idi"

**İyunun 24-də Prezident İlham Əliyev işğal altında olan ərazilərimizin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncamlar imzalayıb. Təltif olunanlar arasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Hüquq şöbəsinin müdir müavini Ruslan Fəzail oğlu Bağırov da var. O, "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.**



Ruslan Bağırov öz döyüş yolu haqqında danışaraq qəzetimizə bunları deyib: "Tam olaraq inanırdım ki, vaxt gələcək işğal altında olan torpaqlarımızı mənfur düşmənlərdən təmizləyəcəyik. Mən də silaha sarılaraq minlərlə vətənpərvər, igid qardaşlarımla, döyüş yoldaşlarımla bu ləkəni üzərimizdən silib atacağıq. Həmin an yetişdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında, Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə, 2020-ci il sentyabrın 27-dən etibarən Vətən müharibəsi başladı. Mən də könüllü olaraq döyüşlərdə iştirak etmək qərarı verdim. Cəbrayıl, Zəngilan, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etdim.

**Döyüş yolumuz nə qədər çətin, ağır olmasına baxmayaraq, son dərəcə qürurverici, əzmli və sevindirici idi. Silahlı Qüvvələrimiz 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımızı azad etmək üçün böyük rəşadətlə mübarizəyə atıldı və üzərinə düşən vəzifəni uğurla yerinə yetirdi. 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Ordusunun zəfəri ilə başa çatdı. Fəxr hissi keçirirəm ki, bu qələbənin qazanılmasında mən də iştirak etmişəm.**

Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Döyüşlər zamanı da bunu müşahidə elədim. Ordumuzda olan ruh yüksəkliyi, döyüş əzmi inanılmaz dərəcədə idi. Vətən və müqəddəs torpaq sevgisi deyərdim ki, başlıca məqsədimizə çatmaqda bizə çox böyük güc verdi. Döyüşlərin getdiyi ərəfədə ordu-xalq birliyi ən yüksək səviyyədə idi. Hər birimiz Ali Baş Komandanın ətrafında sıx birləşmişdik. Dövlət başçısının prinsipiallığı, siyasi ustalığı, çıxışları, müxtəlif informasiya agentliklərinə müsahibələri əsgərlərimizə böyük ruh yüksəkliyi verirdi.

Son olaraq Azərbaycan Ordusu böyük qəhrəmanlıq göstərdi. O, keçilməz deyilən çətin istehkamları yardı, düşmənin hərbi texnikasını, canlı qüvvəsini məhv elədi. Çətin iqlim və ağır relyefdə hər qarış torpağımız uğrunda mübarizə apardı. Ağır məğlubiyyətə uğrayan düşmən kapitulyasiya şərtləri ilə razılaşmalı oldu. Nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Bütün bunlar, Prezident İlham Əliyev başda olmaqla, Azərbaycan əsgərinin uğurudur.

**Xidmətimi başa vurduqdan sonra yenidən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Hüquq şöbəsinin müdir müavini olaraq işimi davam etdirirəm. Amma buna baxmayaraq, bu gün də orduda xidmət edən cəbhə yoldaşlarım ilə mütəmadi olaraq əlaqə saxlayıram. Yaşadığımız o günləri, xüsusən də bizə qələbə ruhu yaşadan döyüş anlarını sevinc hissi ilə xatırlayırıq".**

**Azər MUSTAFAYEV**

# Fondun yaradılması inqilabi addımdır



**Azərbaycan Respublikasının Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsil almaqda bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə Təhsil Tələbə Krediti Fondu yaradılıb. Adından da göründüyü kimi, məqsəd aydındır. İctimaiyyəti maraqlandıran bu məqsədlərin necə həyata keçiriləcəyi Fondun fəaliyyət mexanizmidir. Elə təhsil üzrə ekspert Kamran Əsədovla söhbətimiz də bu barədə oldu.**

K.Əsədova görə, Fondun yaradılması inqilabi addımdır. Çünki Fond tələbəyə təhsil haqqı ilə kifayətlənməyəcək. Eyni zamanda ona kirayə götürdüyü mənzil, hər hansı bir layihəni həyata keçirmək üçün lazım olan vəsaiti verə biləcək.

Fondda kreditlər ən aşağı faizlə veriləcək. Müraciət edənlərin təhsil göstəricilərinə xüsusilə diqqət yetiriləcək. Əgər müraciət edən şəxs yüksək akademik fəaliyyət göstərərsə, beynəlxalq olimpiadalarda, yarışlarda qalib gələrsə, dövlət tərəfindən verilən kredit bağışlana bilər. Fondun idarə heyəti tələbənin akademik fəaliyyətinə nəzarət edəcək, göstəriciləri yaxşı olan tələbələrə təhsil kreditinin tətbiqi barədə qərar verəcək. Yəni akademik fəaliyyəti passiv olan, kəsirlərlə təhsil alan şəxslər bu kreditdən yararlana bilməyəcəklər.

K.Əsədov dedi ki, Təhsil Tələbə Krediti Fondunun nizamnamə kapitalı 80 milyon manat nəzərdə tutulub. Qanunvericilik çərçivəsində nizamnamə kapitalına əlavə vəsait cəlb oluna bilər. Tələbələr növbəti tədris ilindən etibarən tələbə krediti ala biləcəklər. Kreditlər veriləndə ilkin mərhələdə giriş balları nəzərə alınacaq. Yüksək nəticə göstərilməsi ilk şərt olacaq. Bu kredit kommersiya məqsədi daşımır. Kredit məbləği birbaşa tələbəyə deyil, ali təhsil aldığı müəssisəyə ödəniləcək. Kredit öz hesabına təhsil alan tələbələrə də şamil olunacaq. Təhsil Tələbə Krediti Fondu tərəfindən verilən kreditlər 2 qrupa bölünəcək. Birinci qrupa sosial həssas tələbələr daxildir. İkinci qrup isə standart kredit olacaq. Tələbə təhsil kreditini 20 il müddətinə qaytara biləcək. Yəni tələbə ali təhsil müəssisəsini bitirdikdən sonra 20 il ərzində həmin krediti hissə-hissə Fonda qaytara biləcək. Bu və ya digər səbəbdən tələbə hərbi müddətdə olduğu zaman, yaxud işləmədiyi müddətdə Fonda kredit vəsaitini geri qaytarmaq iqtidarında olmazsa, ona möhlət hüququ veriləcək. Kreditin məbləğinin yuxarı həddi illik təhsil haqqını keçməyəcək. Təhsil tələbə krediti əcnəbi tələbələrə şamil olunmayacaq. Təhsil Tələbə Krediti Fondu tərəfindən verilən kredit yalnız ölkə daxilində alınan ali təhsilə şamil ediləcək.

K.Əsədov bildirdi ki, yüksək peşə təhsili alan tələbələr, həmçinin özəl ali təhsil müəssisələrində təhsil alan gənclər də tələbə təhsil krediti ala biləcəklər.

**Həmsöhbətim onu da qeyd etdi ki, kredit ilə bağlı Amerika təcrübəsi var. Amerikada artıq 2 milyard dollar vəsait problemli kreditə çevrilib. Bu da məhz tələbələrə verilmiş kreditlərdir ki, geri qaytarılmır: "Ona görə hesab edirəm ki, dövlət kredit verəcəyi şəxslər ilə müqavilə imzalamalıdır. Müqavilədə xüsusi bənd olmalıdır ki, universiteti bitirdikdən sonra bir il ərzində kredit götürən şəxs özü iş tapmalıdır ki, birinci kreditini ödəsin, ilin tamamında isə ixtisas sahəsinə uyğun iş təklif edilə bilər. Tələbə ali təhsilini başa vurduqdan sonra üzərində ən azı 6-7 min manatlıq kredit olacaq. Özəl fəaliyyətini yaxşılaşdırmaq, şəxsi biznesini böyütmək üçün kredit istədiyi zaman banklar vətəndaşın üzərində aktiv borc olduğunu görəcək. Bunun üçün elə etməliyik ki, tələbəyə verilən kredit ən aşağı faizlə olsun. Dövlətin burada məqsədi kommersiya deyil, ali təhsilli insanların sayının çoxalmasıdır. Bunların fonunda maddə olmalıdır ki, tələbə təhsilini başa vurduqdan sonra mütləq işləməlidir. Beləliklə, işsizliyin də qarşısı alınar və savadlı kadrlar çoxalar".**

**Gülöyşə MƏMMƏDLİ**

# "Hüququndan keçən əsgər, Hərə bir qəhrəman oldu!"

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev:***

**"İkinci Qarabağ müharibəsi şanlı tarix kimi, şanlı qələbə kimi Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazılıb.**

**Biz qalib ölkəyik. Ermənistanı məhv etmişik, siz yaxşı bilirsiniz hansı çətin şərait əsasında. Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi - öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, dəmir yumruq yerindədir.**

**Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Dəfələrlə demişdim ki, bizim şəhidlərimizin qanı yerdə qalmayacaq. Belə də oldu. İkinci Qarabağ müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi".**

## Oğula hədiyyə edilən bayraq



**Yaralı döyüş yoldaşını xilas edərkən şəhid olan Xüsusi Təyinatlı Qüvvələrin kapitanı Kamil Əliş oğlu Şirinov 1991-ci il aprelin 9-da Salyanın Çuxanlı kəndində doğulub. Bu kənddə də 9-cu sinfə qədər oxuyur. Sonra təhsilini C.Naxçıvanski adına Hərbi Liseydə və Heydər Əliyev adına Ali Hərbi Akademiyada davam etdirir. 2013-cü ildə "N" saylı hərbi hissədə xidməti fəaliyyətinə başlayır. Tezliklə ən ümdə istəyinə - Xüsusi Təyinatlı Qüvvələrin sıralarında xidmət etmək arzusuna qovuşur. Bu sahədə özünün nəyə qadir olduğunu göstərmək üçün 2016-cı il Aprel döyüşləri ona şans verir. Bu döyüşlərdən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif olunur.**

K.Şirinov rus və erməni dillərini çox yaxşı bilirdi. O, bir neçə beynəlxalq hərbi təlimlərin iştirakçısı olub. 2020-ci ilin yanvarında Pakistanda olduğu 4 aylıq təlimlər də bunlardan biri idi.

**Torpaqlarımızın mənfur düşməndən azad olunması uğrunda başlayan Vətən müharibəsi zamanı Kamil cəsarətlə döyüşlərə qatılır. O, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşır. Qrup komandiri kimi hamıdan öndə getməyə çalışır, ən təhlükəli nöqtələrdə döyüşür. Sentyabrın 29-da elə Füzuli döyüşləri zamanı Qaraxanbəyli kəndində yaralı döyüş yoldaşlarından birini xilas etməyə çalışan zaman snayper gülləsinə tuş gəlir. Güllə yarasından az sonra dünyasını dəyişir. Həmin anlarda ovcunun içində bərk sıxdığı bayrağı döyüş yoldaşına uzadaraq "bu bayrağı oğluma verərsiniz" deyir.**

O, doğma kəndində dəfn olunur.

Qeyd edək ki, Kamilin atası Əliş Şirinov da vaxtilə hərbçi olmuş və I Qarabağ müharibəsində iştirak etmişdir.

**Kamil Əliş oğlu Şirinov "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, ölümündən sonra isə "Qarabağ" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.**

## *"Qəlbimin üstündə daşıdığım bayrağı məzarımda başımın altına qoyarsınız"*

**Şamil Babayev Vətən müharibəsinə doğulduğu Camaldın kəndindən yola düşüb. Naxçıvan Muxtar Respublikasının səfalı, bərəkətli kəndlərindən sayılan Camaldın həm də igid oğulları ilə tanınır. Şamil Vətən müharibəsinə qədər yaxşı hərbi təlim görmüşdü. Əsgərlikdə olduğu müddətdə hərbi sirlərə böyük maraq göstərmişdi. Evə çavuş hərbi rütbəsi ilə qayıtmışdı.**

Lakin hərbi xidmətini başa vurduqdan sonra da hiss etdi ki, Allah onu hərbi geyim üçün yaradıb. Odur ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının (DİN DQ) "N" saylı hərbi hissəsində Xüsusi Təyinatlı Dəstədə xidmətə başladı. Xidmətə paralel 2012-ci ildə Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsil aldı. 2014-cü ildə bu məktəbi bitirdikdən sonra Daxili Qoşunların "N" saylı hərbi hissəsində Xüsusi Təyinatlı Dəstənin "Atəş Təminat Qrupu"nun komandiri vəzifəsinə təyin edilir. Bununla da o, zabit kimi Vətəninə şərəflə, ləyaqətlə xidmət etməyə başlayır. 2017-ci ildə isə baş leytenant hərbi rütbəsinə yüksəlir.



Zabit Ş.Babayev 2018-ci ildən başlayaraq xüsusi təlimlərə cəlb edilir. Türkiyədə təhsil alan gənc zabit artıq hərb sahəsinə dərindən bələd olur. 2020-ci ildə isə artıq o, kapitan hərbi rütbəsi alır. Zabit Türkiyədə və Azərbaycanda Fəxri fərmanlarla təltif edilir.

**Qəhrəman zabit Vətən müharibəsi başlayan ilk gündən döyüşə atılıb. Füzuli, Hadrut və Şuşa istiqamətində olan döyüşlərdə xüsusi şücaət göstərir. Füzuli istiqamətində döyüşərkən "Atəş Təminat Qrupu" və onun komandiri Şamil Babayev pusquya düşürlər. Zabitin döyüş yoldaşları qeyd edir ki, pusqudan çıxmaq çox çətin olur. Bütün ətraf düşmənlə əhatələndiyi üçün sağ qalma ehtimalı daha da azalır. Lakin onlar peşəkar komandir heyəti ilə birlikdə döyüşərək düşməni məhv edib pusqunu dağıdırlar. Komandir və onun heyəti 5 gün keçilməz yolları qət edərək gizli meşə yolları ilə Şuşaya çatır və noyabrın 5-i Şuşa uğrunda döyüşlər başlayır. Noyabrın 7-də döyüş zamanı minamyotdan açılan atəş nəticəsində kapitan Babayev bir neçə yerdən yaralanır. Yoldaşları onu döyüşdən çıxarmaq istəsələr də, komandir heyətini tək qoymaq istəmir. Beləliklə, o, yaralı halda döyüşə davam edir. Lakin düşmənin yenidən açdığı minamyot atəşi nəticəsində Şamil Babayev Şəhidlik zirvəsinə ucalır.**

Noyabrın 13-də zabit doğulub boya-başa çatdığı Camaldın kəndində dəfn edilir.

Şamil Baloğlan oğlu Babayev "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, ölümündən sonra isə "Zəfər" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilir.

**Şamil Babayevin döyüş yoldaşlarından istədiyi bir arzusu var idi: "Şəhid olsam, qəlbimin üstündə daşıdığım bayrağı məzarımda başımın altına qoyarsınız". Şəhidimizin bu arzusu yerinə yetirilir. Uğrunda can verdiyi, üstündə daşıdığı bayraq bu gün yanında-məzarı başında dalğalanır.**

### Şəhid Babək Saleh oğlu Həsənov



**Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olan igidlərimizdən biri də Həsənov Babək Saleh oğludur.**

Babək Həsənov 1990-cı il sentyabrın 14-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olub. 1996-2007-ci illərdə Qazax rayon Musa Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbində təhsil alıb. 2008-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Qazax Rayon Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmış, 2009-cu ildə hərbi xidmətdən tərxis olunmuşdur. 2013-2018-ci illər ərzində Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu (MAHHXHQ) kimi xidmət etmişdir.

**Ölkə Prezidentinin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" müvafiq tarixli Sərəncamı ilə oktyabrın 26-da SHXÇDX-nın Qazax Rayon Şöbəsi tərəfindən qismən hərbi səfərbərliyə cəlb olunmuşdur.**

Azərbaycan Ordusunun əsgəri olan B.Həsənov II Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl, Laçın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 4-də isə Füzuli-Cəbrayıl istiqamətindəki döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Noyabrın 5-də doğulduğu Birinci Şıxlı kənd qəbiristanlığında izdihamla dəfn edilmişdir.

Ailəli idi. Əfsanə adlı bir azyaşlı qız övladı yadigar qalıb.

**Ölümündən sonra Babək Saleh oğlu Həsənov Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.**

### Şəhid Elxan Ramazan oğlu Ramazanov



**Elxan Ramazan oğlu Ramazanov 2000-ci il yanvarın 25-də Zaqatala rayonunun Danaçı kəndində anadan olub. 2007-2016-cı illərdə Danaçı kənd tam orta məktəbində, 2016-2019-cu illərdə isə Azərbaycan Texniki Universitetinin nəzdindəki Bakı Texniki Kollecində təhsil alıb.**

Elxan Ramazanov 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib.

E.Ramazanov sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərimizin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Suqovuşan və Ağdam istiqamətində gedən döyüşlərdə iştirak edib.

Elxan Ramazanov oktyabrın 18-də cəbhənin Ağdam istiqamətində gedən döyüşlər zamanı ağır yaralanıb. Dörd dəfə əməliyyat olunmasına baxmayaraq, oktyabrın 22-də Şəhidlik zirvəsinə ucalıb.

Zaqatala rayonunun Danaçı kəndində torpağa tapşırılıb.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Elxan Ramazan oğlu Ramazanov ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.**

### Şəhid Cavid Cavanşir oğlu Yüzbaşiyev



**Cavid Cavanşir oğlu Yüzbaşiyev 1995-ci il iyulun 20-də Balakən rayonunun Hənifə kəndində anadan olub. 2002-2013-cü illərdə M.P.Vaqif adına 1 saylı Tülü kənd tam orta məktəbində təhsil alıb.**

Cavid 2014-2016-cı illərdə hərbi xidmətdə olub.

Sentyabrın 27-də başlayan II Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. C.Yüzbaşiyev oktyabrın 16-da elə Suqovuşan döyüşləri zamanı da Şəhidlik mərtəbəsinə yüksəlib.

O, Balakən rayonunun Hənifə kəndində torpağa tapşırılıb.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Cavid Cavanşir oğlu Yüzbaşiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.**

### Şəhid Elnur Elsevər oğlu Zeynalov



**Elnur Elsevər oğlu Zeynalov 1994-cü il iyulun 28-də Naxçıvanda anadan olub. 2012-2016-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil alıb.**

Azərbaycan Ordusunun baş leytenantı olan Elnur sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb.

E.Zeynalov oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhid olub. Şəhidimiz Naxçıvanda dəfn olunub.

**Prezident İlham Əliyevin Sərəncamı ilə Elnur Elsevər oğlu Zeynalov "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, ölümündən sonra isə "Qarabağ ordeni", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

***Səhifəni hazırladı: Aliyə SƏMƏDOVA***

# Şuşa Bəyannaməsindən sonra Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin bir daha yüksəlişi



Vüqar Bayramov

**Bu əlaqələr hələ ölkəmizin müstəqilliyinin ilk illərindən etibarən inkişaf etməyə başlamışdır. Bu istiqamətdə ilkin olaraq 1 noyabr 1992-ci il tarixində Azərbaycan və Türkiyə arasında Ankarada "Ticarət və İqtisadi Əməkdaşlıq haqqında Saziş" imzalanmış, 23 yanvar 1993-cü il tarixindən isə qüvvəyə minmişdir.**

İkitərəfli iqtisadi münasibətlərin hərtərəfli inkişafı isə 1994-cü ildən sonra həyata keçirilən tədbirlər və hüquq-müqavilə bazasının təkmilləşdirilməsi istiqamətində atılmış addımlarla genişlənmişdir. Ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr həyata keçirilib. Məsələn, Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ), Bakı-Tbilisi-Qars dəmir yolu xətti (BTQ), Trans-Anadolu təbii qaz boru xətti (TANAP) layihələri bu baxımdan ən yaxşı nümunələrdir.

**44 günlük müharibədən sonra əldə olunan qələbə, məhsuldar torpaqlarımızın işğaldan azad edilməsi iki qardaş dövlət arasında iqtisadi əlaqələrin artmasına və daha səmərəli inkişafına yeni təkan verəcək. İqtisadi əlaqələrin yeni müstəvidə inkişafı Şuşa Bəyannaməsi ilə rəsmi olaraq sənədləşdirildi. Bəyannamədə əksini tapmış iqtisadi əməkdaşlığa dair bəndlərin reallıqda nələr vəd etdiyi barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Vüqar Bayramova və Vahid Əhmədova suallarla müraciət etdik.**

"Hazırda Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi 4.5 milyard dollardır.Yaxın 3 il üçün ticarət dövriyyəsinin 15 milyard dollara qədər çatdırılması nəzərdə tutulur". Bunu millət vəkili **Vüqar Bayramov** dedi. Qeyd etdi ki, artıq mart ayının 1-dən iki ölkə arasında ticarət rejiminin liberallaşması ilə bağlı anlaşma imzalanıb. Digər tərəfdən, nəzərə almalıyıq ki, Türkiyə Azərbaycanın qeyri-neft ixracatında da ən böyük ticarət tərəfdaşıdır. Bu baxımdan yeni müqavilə və anlaşmalar Azərbaycanın Türkiyəyə qeyri-neft ixracatının da həcminin artırmasına və iki ölkə arasındakı əməkdaşlığın daha da güclənməsinə səbəb olacaq.

**Sənəddə digər istiqamət beynəlxalq yükdaşımalarla, eləcə də nəqliyyat dəhlizlərinin genişləndirilməsi ilə əlaqədardır. Bu istiqamətdə Zəngəzur dəhlizinin istifadəyə verilməsi gözlənilir. Bu da hər iki ölkənin regiondakı nəqliyyat dəhlizlərindən daha sıx və birgə şəkildə faydalanmasına imkan yaradacaq.**

İqtisadçı alim bildirdi ki, Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin, eləcə də strateji münasibətlərin dərinləşməsinə xidmət edəcək: "Qeyd edim ki, bəyannamə imzalandıqdan sonra Türkiyə Prezidenti iki ölkə arasında yeni müqavilələrin bağlanacağını da bəyan etdi. Artıq ölkələr arasında yeni anlaşmaların və müqavilələrin bağlanması məsələsi müzakirə olunur. Əvvələ, Şuşa Bəyannaməsinə diqqət yetirsək, burada iqtisadiyyatın fərqli sektorlarının, o cümlədən iqtisadiyyatın şaxələnməsi kimi məsələlərin öz əksini tapdığını görərik. Ölkələr birbirilərinə iqtisadiyyatın şaxələnməsi ilə bağlı dəstək olacaqlar. Xüsusən də ixracatın genişləndirilməsi, eyni zamanda iki ölkə arasında ticarət dövriyyəsinin inkişafı, xüsusən də mal və xidmətlərin liberallaşması və sərbəst hərəkətlərinin formalaşması məsələləri burada öz əksini tapıb.

**Millət vəkili Vahid Əhmədov qeyd etdi ki, ikitərəfli birgə istehsal sənayeni, faydalı qazıntıları, kənd təsərrüfatını, iqtisadiyyatın bütün sahələrini əhatə edir. Artıq Türkiyə şirkətləri işğaldan azad olunan torpaqlarımızda işləyirlər, yol, körpülər çəkirlər, çox böyük işlər görürlər. Kənd təsərrüfatı ilə əlaqədar hər iki ölkənin bu sahədə nazirləri həmin əraziləri gəzdilər. Hazırda müəyyən məsələlərin həlli yolunda danışıqlar aparılır. Yeni iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orda əməkdaşlıq olmasın.**

Həmsöhbətim bildirdi ki, həmçinin sənaye istehsalı ilə bağlı cənab Prezident İlham Əliyevin göstərişi var. Artıq təsdiq olunub ki, orada 3 sənaye parkı tikiləcək. İkisi Ağdamda, biri Cəbrayılda fəaliyyət göstərəcək sənaye parklarında rezidentlər iştirak edəcək. Burada həm emal sənayesi, kənd təsərrüfatı sahələri, qızıl emalı və sairə böyük sahələr fəaliyyət göstərəcək. Bütün bu yeni yaradılacaq sahələrdə bir çox Türkiyə şirkətləri də iştirak edəcək: "Qeyd edim ki, işğaldan azad olunan torpaqlarda bir milyon hektar əkinə yararlı sahə var. Bu ərazilər üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvətərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Eyni zamanda burada emal və ərzaq sənayesinin inkişafı potensialı var".



Vahid Əhmədov

**V.Əhmədov vurguladı ki, hesab edirəm burada iqtisadiyyatın birgə təşkili həm də ölkəmizdə yaxın gələcəkdə ərzaq təhlükəsizliyinin təminənə ciddi töhfə verəcək. Xüsusən də heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi yaxşılaşacaq.**

**Əsli TELMANQIZI**

# Xüsusi qayğıya ehtiyacı olan autizmli uşaqlara

## maliyyə dəstəyi ayrılmalıdır



**Kainatın qlobal probleminə çevrilən autizm xəstəliyi ildən-ilə geniş yayılmaqdadır. Araşdırmalara görə, dünya əhalisinin 1 faizi, yəni 70 milyonu autizmdən əziyyət çəkir. Xəstəlik son vaxtlarda Azərbaycanda da geniş yayılmağa başlayıb. Qeyri-hökumət təşkilatlarının apardığı statistik araşdırmalara görə, hazırda ölkəmizdə 6 min nəfərdən çox autizmli uşaq var.**

Hətta rəsmi statistikada autizmli uşaqların sayının az göstərildiyi də qeyd edilir. Çünki bəzi valideynlər uşaqlarına həmin diaqnozu qoymaq istəmirlər və fikirləşirlər ki, zamanla düzələcək.

Mövzu ilə bağlı araşdırmalardan məlum oldu ki, autizmin müalicəsi üçün valideynlər reabilitasiya mərkəzlərinə ayda təxminən 1000-1500 manata qədər pul ödəməli olurlar. Bu sahədə istənilən qədər mərkəz, yüksək qiymətlər və çarəsiz valideynlər var. Onu da nəzərə almalıyıq ki, autizmli uşaq olan evlərdə valideynin biri qayğıya ehtiyacı olan övladla məşğul olmaq məcbiriyyətindədir deyə, əksər hallarda ailədə bir nəfər işləyir. Bir nəfərin isə bu və üstəlik, digər ailə-məişət problemlərinin həllinə sərf olunacaq məbləği qazanması asan, bəzən də heç mümkün olmur, əlbəttə!

**Uşaq nevroloqu Kamran Salayev mövzu ilə bağlı fikirlərini bizimlə bölüşdü. İlk növbədə bildirdi ki, autizmin statistikasının son illərdə artımla göstərilməsi diaqnostikanın daha yaxşı aparılması, maarifləndirmə proqramlarının çoxalması, diaqnozun daha dəqiq və asan qoyulması ilə bağlıdır. Autizm elə xəstəliklərdəndir ki, onun artım tempi və səbəbləri barədə dəqiq fikir söyləmək qeyri-mümkündür. Bircə dəqiq onu demək olar ki, autizmin reabilitasiyasına çox erkən başlamaq lazımdır. Uşaqlarda 1-3 yaş qızıl dövr adlanır. 5 yaşdan sonra uşağın nitqinin açılması prosesi ləngiyir. Hətta nitq açılsa belə, o, cəmiyyətə inteqrasiya olmaqda çətinlik çəkir. Amma belə uşaqlar vaxtında reabilitasiyanın köməyi ilə çox irəliləyiş əldə edə bilərlər.**

Özəl reabilitasiya mərkəzlərində aylıq ödənişin çox olmasına aydınlıq gətirən Kamran həkim bildirdi ki, mərkəzlərin başqa mənbələrdən dəstəyi olmadığını nəzərə almaq lazımdır. Çünki xüsusi qayğıya ehtiyacı olan belə uşaqlarla bir deyil, bir neçə mütəxəssis (psixoloq, loqoped, fizioterapevt, xüsusi pedaqoqlar) işləyir. Məsələn, nitqində problem olan uşaq ancaq həftədə 3 dəfə loqoped yanına gedirsə, danışa bilməyən uşaqlar bütün məşğələlərdə iştirak etməlidirlər ki, müəyyən nəticə əldə olunsun. Bu da ödənişlərə təsir edən amillərdir. Həmçinin bu işlə məşğul olan mütəxəssislərin işi o qədər çətindir ki, aşağı əməkhaqqı ilə işçi cəlb etmək çətindir. Ona görə biz də istərdik ki, bu uşaqlara hansısa maliyyə dəstəyi olunsun.

**-Ölkəmizdə bu xəstəlikdən əziyyət çəkən uşaqlarla təlim keçəcək peşəkar kadrlar yetərincə varmı?**

-Xeyr, yetərli qədər deyil, təəssüf ki... Amma əvvəlki illərlə müqayisədə çox ciddi müsbət dinamika var. Bu dinamikanı inkişaf etdirmək lazımdır. Daha çox xaricdə təcrübə toplamış, beynəlxalq treninqlərdə iştirak etmiş mütəxəssislərə ehtiyac var. Bizim tibb universitetində bu sahəyə aid olan psixiatr, nevropatoloq yetişdirilir. Onlar əsasən diaqnoz və dərman müalicəsinə ehtiyac varsa müdaxilə edirlər. Fizioterapevtlər bədən tərbiyəsi vasitəsilə kömək edirlər. Amma əsas reabilitasiya yükü düşür başqa mütəxəssislərə- psixoloqlara, loqopedlərə, xüsusi pedaqoqlara. Onlar da tibbi yox, digər universitetlərdə təhsil alanlardır.

**- Bir çox valideyn şikayət edir ki, 5 və ya 6 ildir uşaqla mərkəzləri gəzirik, heç bir irəliləyiş hiss olunmur. Buna səbəb nədir?**

- Qeyd edim ki, birinci, bilinməlidir uşaq həftədə neçə gün, neçə saat məşğələlərdə iştirak edib. Autizm ona görə böyük problemdir ki, 5, 6, 10 il, fərq etməz, heç kim təminat verə bilməz ki, nəticə ürəkaçan olacaq, ya olmayacaq. Sağalma ehtimalını artırmağın yeganə yolu, bayaq dediyim kimi, müalicəyə çox erkən başlamaqdır.

**Millət vəkili Məlahət İbrahimqızı** mövzumuzla bağlı bildirdi ki, son zamanlar bu problemin aktuallaşdığını nəzərə alaraq düşünürəm ki, hökumət səviyyəsində də bu məsələləri müzakirə etmək zərurəti yaranıb. Bir sıra ölkədən fərqli olaraq Azərbaycanda bu sahədə müəyyən irəliləyişlərin olduğu danılmazdır. Bu problemlə məşğul olan təşkilatların sayı yetərincədir. Biz də onlara əlimizdən gələn qədər dəstək olmalıyıq.

**M.İbrahimqızı hesab edir ki, autizmli uşaqlara dəstək üçün dövlət proqramının hazırlanmasına ehtiyac var: "Ölkəmizdə autizm xəstəliyi ilə məşğul olan çox savadlı həkimlərimiz var. Düşünürəm ki, onların sayəsində hər bir ana yetərincə məlumatlana və vaxtında, əgər uşağında belə bir problem varsa, onu aşkarlaya bilər. Çünki maarifləndirmə işlərinin genişləndirilməsi bu sahədə çox böyük irəliləyişlərə səbəb olacaq. Dövlətimizin səhiyyə sahəsində işləyib hazırladığı proqramların bu sahəyə də öz müsbət təsirini göstərəcəyinə əminəm".**

**Ə.ƏHMƏDOVA**

# Geri qaytardığımız torpaqlarımızın adlarını da "azad" etməliyik

**Qlobal xəritələrdə işğaldan azad edilən ərazilərin adlarının hələ də Azərbaycan dili ilə yanaşı, erməni dilində yazıldığın şahidi oluruq. Bunun qarşısını almaqdan ötrü hansı addımlar atılır?**

"Azad edilmiş torpaqlarımızın adlarının qlobal xəritələrdə, beynəlxalq axtarış saytlarında öz dilimizlə yanaşı, xarici dildə yazılması qanunazidd deyil. Ancaq işğalçı ölkənin dilində qeyd olunursa, bu, artıq yolverilməzdir, hətta deyərdim ki, cinayətdir". Bunu Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü **Elman Nəsirov** qəzetimizə verdiyi müsahibəsində qeyd etdi. Bildirdi ki, hazırda hansı konkret addımlar atıldığını deməyə çətinlik çəkirəm. Amma, yəqin ki, müvafiq qurumlar, xüsusən Xarici İşlər Nazirliyi (XİN) beynəlxalq qurumları məlumatlandıracaqlar. Eyni zamanda BMT-dəki nümayəndəliyimiz də bu istiqamətdə işlər görəcək".




Azərbaycan İnternet Forumunun Prezidenti **Osman Gündüz** də məsələyə münasibət bildirdi. Dedi ki, ötən müddət ərzində qlobal xəritə xidmətləri göstərən şirkətlərin ("Google", "Apple", "Yandex", "OpenStreetMap" və sair) söykənəcəyi və istifadə edəcəyi milli datalarla bağlı ölkə qanunvericiliyində müəyyən dəyişikliklər edilib, dövlət qurumları arasında səlahiyyət bölgüsü dəqiqləşib, koordinasiya məsələsi həll edilib: "Problemin həlli istiqamətində konkret addımlar atılıb. Belə ki, məsələ ilə bağlı Nazirlər Kabinetinin (NK) 20 fevral 2020-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə təhrif edilmiş formada istinad edilən xəritələrdən istifadə hallarının qarşısının alınmasına dair Tədbirlər Planı" təsdiq edilib, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) "Geodeziya və Kartoqrafiya" dövlət şirkəti rəqəmsal xəritələri və datanı, eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik və Coğrafiya üzrə qurumları tərəfindən coğrafi adların elektron bazası, coğrafi adların transliterasiyası və düzgün yazılışı hazırlanıb, NK-nın Qaydaları təsdiqlənib, bundan başqa, ETSN və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (NRYTN MHM) coğrafi adlarla bağlı rəqəmsal datanı, 11 adda açıq coğrafi məlumatları NRYTN-in Açıq Məlumat Portalına (opendata.az) yerləşdirib, məsələdə maraqlı tərəflər və qlobal xəritə şirkətləri üçün APİ servislər hazırlanıb.

**Qlobal xəritə şirkətlərinin coğrafi adlarla bağlı milli datamıza istinad edilməsinin təşkili ilə bağlı məsələyə də toxunan ekspert bildirdi ki, NK-nın yuxarıda adıçəkilən sərəncamına uyğun olaraq qlobal resurslarda milli coğrafi adlarımızın təhrif olunmasının qarşısının alınması istiqamətində XİN əlaqəli qurumlarla birgə addımlar atmalı idi: "Lakin, göründüyü kimi, bu istiqamətdə rəqəmsal milli data hazır olsa da, onun tətbiqi istiqamətində atılan addımlar hələlik yetərli olmayıb. Düzdür, hazırda XİN bu istiqamətdə işləri davam etdirir, ancaq, fikrimcə, qanunvericiliyə uyğun olaraq hazırlanmış milli xəritə datalarının əldə edilməsi üçün qlobal şirkətlərlə kommunikasiyaları gücləndirməlidir. Bu məqsədlə internet ictimaiyyətinin, diasporanın potensialından effektiv istifadə edilməlidir. Düşünürəm ki, internet istifadəçilərinin həmin ərazilərin adlarının iki dildə yazılmasının qarşının alınması ilə bağlı dövlət tərəfindən müəyyən olunan dəqiq coğrafi adlarımıza istinad etməklə qlobal xəritə şirkətlərinə müraciətlər etməsi faydalı olardı. Eyni zamanda işğaldan azad edilən rayonlarımızın həm də adlarının azad edilməsi, Azərbaycan dilinin qlobal dünyada düzgün istifadəsi üçün dövlət və özəl sektorun, vətəndaş cəmiyyətinin səylərinin gücləndirilməsinə ciddi ehtiyac var.**

**Aliyə SƏMƏDOVA**

# Konfransın birinci seqmenti başa çatıb




**Beynəlxalq Əmək Konfransının 109-cu sessiyasının iyun seqmenti sona çatdı. İlk dəfə olaraq virtual keçirilən konfransda COVID-19-un əmək dünyasına təsiri və insana yönələn inklüziv bərpanı necə təmin etmək barədə intensiv müzakirələr aparıldı.**

Plenar diskussiyalar zamanı nümayəndələr COVID-19 dövründə görülən işlər barədə Baş direktorun məruzəsini konfrans iştirakçılarına təqdim ediblər. Məruzədə müddəalar insanyönümlü yanaşmanın tətbiq olunduğu, pandemiyaya qarşı davamlı və hərtərəfli qlobal cavab tədbirlərinə nail olmaq üçün 2019-cu il BƏT-in Yüzilliyin Bəyannaməsində öz əksini tapmışdır. Nümayəndələr yekdilliklə iqtisadiyyatın və cəmiyyətin uzunmüddətli zədələnmələrin qarşısını almaq üçün pandemiyadan insana yönəlmiş bərpa tədbirlərini əks etdirən Qlobal Fəaliyyət Çağırışını qəbul etdilər.

Qlobal hərəkətə çağırış böhrandan sonra onların iqtisadi və sosial bərpasının tam inklüziv, dayanıqlı olmasını tələb edir.

İyunun 17-18-də keçirilən tədbirdə dünya liderləri, işçilərin və işəgötürənlər təşkilatlarının, eləcə də Birləşmiş Millətlər Təşkilatının nümayəndələri çıxış ediblər. Sammit COVID-19 böhranına qlobal cavab verilməsinin zəruriliyinə və gələcəkdə daha yaxşı bir iş qurmaq üçün lazım olan tədbirlərə həsr olunmuşdu.

**Konfrans standartların tətbiqinə dair Komitənin hesabatını qəbul edib. Burada 19 ölkədə BƏT-in konkret konvensiyalarının tətbiqi ilə bağlı nəticələr əks olunmuşdur. Belarus, Salvador və Zimbabve standartların tətbiqində xüsusilə ciddi problemlərin göstərildiyi xüsusi paraqraflara daxil edilib. Sürətlə dəyişən əmək dünyasında məşğulluğun və layiqli işin təşviq edilməsinin vacibliyi barədə razılığa gəlinib. Hökumətlərə işəgötürənlər və işçilərin təşkilatları və maraqlı tərəflərlə məsləhətləşərək beynəlxalq standartlara əsaslanan siyasət və proqramları hazırlamağın, həyata keçirməyin, izləməyin və yenidən baxmağın vacibliyi vurğulanıb.**

Sosial müdafiə məsələləri üzrə müzakirədə əmək sahəsinə COVID-19-un təsiri və digər baş verən sürətli dəyişikliklərə diqqət yetirilib. Nümayəndələr əmək sahəsində dəyişikliklərə uyğunlaşdırılmış universal, adekvat, hərtərəfli və davamlı sosial müdafiə sistemlərinin yaradılması üzrə təxirəsalınmaz tədbirlərin çərçivəsini əks etdirən nəticələr əldə ediblər.

Bu fəaliyyətə milli sosial müdafiə siyasətinin möhkəmləndirilməsi, maliyyə boşluqlarının aradan qaldırılması, böhrandan sonra sosial müdafiə sistemlərinin idarə olunmasının və adaptasiyasının gücləndirilməsi və gələcək əmək sahəsi kontekstində tədbirlər daxil idi.

**Nümayəndələr BƏT-in 2022-2023-cü illər üçün proqram və büdcəsinin qəbul olunmasına da səs veriblər. Bundan başqa, onlar köhnəlmiş 29 beynəlxalq əmək müqaviləsinin ləğvi və ya geri çağırılması barədə razılığa gəliblər.**

Konfransın bu seqmentinə yekun vuran BƏT-in Baş direktoru Qay Rayder təşkilatın institusional və fasiləsiz fəaliyyətini təmin edən sessiyanın gedişatında əldə olunan nəticələrdən razı qaldığını bildirib: “Son bir neçə həftə ərzində görülən işlər təşkilatımızın böyük uğurudur. Əldə olunmuş nəticə təşkilatımıza əmək dünyasında ən çətin anda belə çağırışların öhdəsindən gəlmək imkanı verir. Bu, bir çox hökumətin, işçilərin və işəgötürənlərin rəhbərlik və fəaliyyətə görə bizə müraciət etməsinin ifadəsidir”.

Virtual keçirilən tədbirdə 171 nazir və nazir müavini, həmçinin BƏT-in üzvü olan 181 dövlətdən işçilərin və işəgötürənlərin yüksək vəzifəli nümayəndələri daxil olmaqla 4500-ə yaxın nümayəndə iştirak edib.

**Konfransın ikinci seqmenti bu il noyabrın 25-dən dekabrın 11-dək keçiriləcək və onun gündəliyinə əmək dünyası və bərabərsizlik, həmçinin həyat boyu bacarıq və təlim haqqında tematik müzakirələr daxildir.**

# Həmkarlar ittifaqları olaraq gözləntilərimiz çoxdur




**Avropa Həmkarlar İttifaqları Konfederasiyasının Baş katibi Luka Visentini iyunun 19-da Strasburqda Avropanın Gələcəyi ilə bağlı konfransda çıxışında bildirib ki, Avropa həmkarlar ittifaqları və işçilər bu konfransı dəstəkləyirlər. İnsanların qayğısına qalan daha ədalətli Avropa Birliyinin formalaşmasına öz töhfələrini vermək əzmindədirlər.**

O deyib ki, bu proses başladıldıqda, Avropada demokratiyanı bərpa etmək üçün iqlim dəyişikliyi və rəqəmsallaşma problemlərinin öhdəsindən gəlmək məqsədilə vətəndaşları qurumlarla yenidən bağlamaq, maliyyə böhranı və sərt qənaət siyasətinin nəticəsi olaraq bərabərsizliklər və sosial təcriddən çıxmaq zərurəti yarandı.

Pandemiyadan sonra bu məsələlərin daha təcili həllinə ehtiyacı vardır. Məhdud vaxt qalıb və avropalı işçilər və vətəndaşlar gözləyirlər ki, biz bunların öhdəsindən gələcəyik.

**Baş katib vurğulayıb ki, konfrans vətəndaşların, mütəşəkkil vətəndaş cəmiyyətinin, sosial tərəfdaşların tam iştirakı ilə real və hərtərəfli müzakirə üçün bir fürsət olmalıdır.**

İşçi qrupları və vətəndaş qrupları daxil olmaqla, bütün müzakirə forumlarında iştirak etdiyimizə əmin olmağınızı xahiş edirik. Yaxşı və əhəmiyyətli bir nəticə əldə etmək məqsədilə bütün səviyyələrdə işçiləri və müəssisələri səfərbər etmək üçün əlimizdən gələni edəcəyik.

Ancaq bu, yalnız proses deyil, iddialı məzmuna ehtiyacımız var, köklü dəyişikliyə təkan verməliyik.

İctimai xidmətlərin və sosial dövlətimizin möhkəmləndirilməsi, iş yerlərinin qorunması yolu ilə səhiyyə, təhlükəsizlik və sosial müdafiə sahələrində radikal dəyişikliklər həyata keçirilməlidir.

İqtisadi modelimizdə radikal dəyişiklik hər kəs üçün bərabərlik və yaxşı imkanlar deməkdir.

**Ədalətli bir keçid yolu ilə ətraf mühitin dəyişməsini və rəqəmsallaşmanı idarə etmək üçün köklü dəyişiklik lazımdır. Bu, təkcə təlim və ixtisasartırma deyil, həm də keyfiyyətli iş yerlərinin yaradılması, ümumi sosial müdafiə, icmaları və sosial tərəfdaşları kimsəni geridə qoymayan əhatəli idarəetməyə tam cəlb etmək deməkdir.**

Radikal dəyişiklik Avropadakı hər kəsin cinsi, yaşı, etnik mənsubiyyəti və miqrasiya mənşəyi, dini, əqidəsi və ya siyasi oriyentasiyasına görə ayrı-seçkilik etmədən əsas hüquqlardan, sosial və əmək hüquqlarından tam şəkildə istifadə edə bilməsi deməkdir.

Bu həm də demokratik dəyərlərin və hüququn aliliyinin, həmçinin sosial dialoqa, kollektiv danışıqlara və zəhmətkeşlərin iştirakına əsaslanan sosial demokratiyanın qorunması deməkdir.

Yalnız bu radikal dəyişikliklər sayəsində biz Avropa layihəsini bir dəyər kimi qoruya bilərik və bunun üçün mübarizə aparmaq lazımdır.

**L.Visentini deyib ki, bu konfransdan insanlara səs vermək imkanı yaradaraq əlimizdən gələni etməliyik. Açıq danışaq, biz də dəyişməliyik. Demokratik proseslərin şəffaflığını təmin etmək lazımdır, institutlar daha məsuliyyətli olmalıdır. Qərarların qəbul edilməsi sonsuz diskussiyalarla, milli eqoizm və vetolarla iflic olmamalıdır.**

Gözləyirik ki, müqavilələrdə dəyişikliklər nəzərdən keçiriləcək və onların arasında biz münaqişə halında iqtisadi azadlıqlar üzərində sosial hüquqların prioritetini təmin edən sosial tərəqqi protokolunun tərəfdarıyıq. Avropa sosial sütununun sosial bazar iqtisadiyyatımızın təməl daşına çevrilməsi də vacibdir.

**Bu konfransın yekunlarından həmkarlar ittifaqları olaraq gözləntilərimiz çoxdur.**




# Həyat və sağlamlıq hər şeydən vacibdir

**Avropa Komissiyası həmkarlar ittifaqlarına qoşularaq üzv dövlətləri işçilərin həyatı üçün təhlükəli olan əməyin mühafizəsi və təhlükəsizlik texnikası sahəsində problemləri aradan qaldırmağa çağırıb.**

Bu ilin aprel ayında Avropa Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) iş yerində təhlükəsizlik yoxlamalarının sayının 2010-cu ildən bəri beş dəfə azaldığını, 17 üzv ölkədə yoxlamaların sayının 55 faizə düşdüyünü göstərən bir araşdırma yayımladı. Avropa Komissiyası tərəfindən çap olunmuş əməyin mühafizəsi və təhlükəsizlik texnikası strategiyasında da üzv dövlətlər nöqsanları aradan qaldırmağa səslənilir.

Həmçinin üzv dövlətlərə COVID-19-un peşə xəstəliyi kimi təsnif edilməsi təklif olunur. Qeyd edək ki, işçilərin virusdan qorunması üçün əlavə müdafiənin təmin olunması məqsədilə həmkarlar ittifaqları bir ildən çox idi ki, fəaliyyət aparırdı.

**Bu, işlə əlaqədar ölüm hadisələrinə yanaşmada doğru addımın bir hissəsidir. Bu zaman aşağıda qeyd olunanların nəzərə alınması da çox vacibdir:**

*- Avropada COVID-19 qurbanlarının çox hissəsi ( 1 milyondan çox) işdə bu xəstəliyə yoluxub;*

*- hər il 100 mindən çox insan iş yerində xərçəng xəstəliyinə tutularaq ölür;*

*- iş yerində ölümlə nəticələnən bədbəxt hadisələrin sayı artır.*

Ötən həftə Antverpendə (Belçika) 5 inşaatçının həlak olduğu və daha 9 nəfərin ciddi yaralandığı binanın çökməsi bir daha onu göstərir ki, əməyin mühafizəsi və təhlükəsizlik texnikası ilə bağlı daha ciddi tələblər lazımdır.

**Lakin Komissiyanın strategiyası onun qarşısında qoyulmuş aşağıdakı sahələrdə ambisiyalı məqsədə heç də uyğun gəlmir:**

*-O, xərçəngə səbəb olan daha bir neçə maddə üçün mütləq təsir hədlərini müəyyənləşdirməyi öhdəsinə götürür, lakin bu işçilərin Avropada daha geniş məruz qaldığı digər təhlükəli 50 prioritet kanserogeni əhatə etmir. Yalnız 27 belə kanserogen maddə hazırda məhdudiyyət altındadır. Təəssüf ki, strategiyada təhlükəli kimyəvi maddələr, endokrin pozucu maddələr və tənəffüs edilə bilən kristal silisium üçün məcburi peşə təsirin məhdudlaşdırılması və yenidən nəzərdən keçirilməsi yoxdur;*

*-psixi-sağlamlıq və dayaq-hərəkət pozuntuları üzrə heç bir qanunvericilik təşəbbüsü yoxdur, halbuki işçilər həqiqətən də hər iki məsələ üzrə direktivə ehtiyac duyurlar;*

*-iqlim dəyişikliyi fonunda maksimum işləmə temperaturuna ehtiyac olduğuna toxunulmur;*

*-ən narahatedici odur ki, strategiya özünüməşğulluq əsasında (Acquis-ə uyğun) təklif olunan müdafiənin dəyişdirilməsini nəzərdə tutur. Bu, tikinti kimi yüksək risk səviyyəsinə malik sahələrdə çalışan insanları təhlükə altına salacaq.*

**Strategiyanı şərh edən AHİK Baş katibinin müavini Ester Linç deyib: “İş yerində təhlükəsizlik yoxlamalarının sayının 10 il ərzində minimal səviyyədə olması, COVID-19-un təsirindən insanların bu dünyadan köçməsi və xəstəliyin geniş yayılması böyük bir fəlakətdir. Komissiya üzv ölkələrə açıq siqnal göndərib ki, bu təhlükəli vəziyyətlə daha barışmaq olmaz. Lakin komissiya xoş niyyətlə kifayət qədər hərəkət etmədi. İş yerində bədbəxt hadisələrin sayı artır və 100 mindən çox insan hər il işlə əlaqəli xərçəngdən ölür. Erqonomik və psixososial risklər yüksək olaraq qalır. Bizim daha ciddi qaydalara və düzgün icraata ehtiyacımız var. Hər kəs həqiqətən təhlükəsiz şəkildə evə çatacağına əmin olaraq işə başlaya bilsin”.**

# Yeni qanun qüvvəyə minir



**Əmək sahəsində zorakılıq və təcavüz haqqında ilk beynəlxalq müqavilə Beynəlxalq Əmək Konfransı tərəfindən qəbul edildikdən iki il sonra 2021-ci il iyunun 25-də qüvvəyə minib.**

İndiyə qədər altı ölkə Argentina, Ekvador, Fici, Namibiya, Somali və Uruqvay Beynəlxalq Əmək Təşkilatının (BƏT) “Zorakılıq və təcavüz haqqında” 190 saylı Konvensiyasını (2019-cu il) ratifikasiya edib. Konvensiyanı ratifikasiya etmiş ölkələr ratifikasiyadan bir il sonra onun müddəalarına hüquqi cəhətdən riayət etməlidir.

BƏT-in 206 saylı tövsiyəsi ilə yanaşı, 190 saylı Konvensiyası da hər kəsin şiddət və təcavüzdən azad bir iş dünyasına sahib olma hüququnu tanıyır və ümumi bir fəaliyyət çərçivəsini təmin edir. Gender, əsaslı şiddət və təcavüz də daxil olmaqla, əmək dünyasında şiddət və təcavüzün ilk beynəlxalq tərifini təqdim edir.

**İş yerindəki şiddət və təcavüz müxtəlif formalarda olur və fiziki, psixoloji, cinsi və iqtisadi zərərlərlə nəticələnir. Konvensiyanın qəbulundan sonra COVID-19 pandemiyası bu məsələni daha da qabarıq göstərdi, çünki epidemiya başlandığı gündən bəri müxtəlif ölkələrdə, xüsusən qadınlara və həssas qruplara qarşı iş yerlərində bir çox şiddət və təcavüz haqqında məlumatlar verildi.**

BƏT onun ratifikasiyası və həyata keçirilməsini təşviq etmək məqsədilə qlobal kampaniyaya başlayacaq. Kampaniya Konvensiyanın nə demək olduğunu, əhatə etdiyi məsələləri və əmək sahəsində zorakılıq və təcavüzlə mübarizəyə necə istiqamətləndiyini sadə dildə izah etməyə yönəlmişdir.

**BƏT-in Baş direktoru Qay Rayder “Şiddət və təqiblər olmadan daha yaxşı bir iş gələcəyi” deyərək qlobal kampaniyanın başlanması ilə bağlı mesajını çatdırıb. Bildirib ki, 190 saylı Konvensiya BƏT-ə üzv olan dövlətləri əmək sahəsində bütün formalarda zorakılıq və təcavüzün aradan qaldırılmasına çağırır. Mən ölkələri israrla bu Konvensiyanı ratifikasiya etməyə və işəgötürənlər, işçilər və onların təşkilatları ilə birlikdə hamı üçün layiqli, təhlükəsiz və sağlam əmək həyatı qurmağa səsləyirəm.**

BƏT-in Fəaliyyət Həftəsi iyunun 21-dən yüksək səviyyəli virtual dialoq ilə başlayıb. Çıxış edənlər arasında BƏT-in Baş direktoru, Argentina və Madaqaskarın əmək nazirləri, habelə Beynəlxalq İşəgötürənlər Təşkilatı, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və Parlamentlərarası Birliyin (IPU) nümayəndələri yer alıblar.

**Fəaliyyət Həftəsindən sonra BƏT Konvensiyanı və tövsiyəni təşviq etmək və həyata keçirmək üçün üçtərəfli iştirakçılara və digər maraqlı tərəflərə kömək üçün təlimat verəcəkdir. Təlimat ölkələrdə əmək dünyasında şiddət və təcavüzün qarşısını almaq, mübarizə aparmaq və aradan qaldırmaq üçün edə biləcəyi əsas prinsip və tədbirləri, o cümlədən milli qanunlar, qaydalar və siyasət nümunələrini özündə cəmləşdirir.**

**Səhifəni hazırladı: Azər MUSTAFAYEV**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 01 İYUL 2021-Cİ İL / № 24 (1242)



# Akademiya əməkdaşlarının gəzintisi təşkil olunub







**Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının təşkilatçılığı ilə ilk təşkilatların sədrləri iyun ayında öz əməkdaşlarının ölkəmizin müxtəlif rayonlarına gəzintisini təşkil edib. Fəlsəfə və Sosiologiya İnstitutu 40 nəfər əməkdaşını Xaçmaz rayonunda yerləşən "Çoban bulaq" İstirahət Mərkəzinə, Dilçilik İnstitutu 29 nəfər əməkdaşını "Quba-Qəçrəş" İstirahət Mərkəzinə, Fizika İnstitutu 42 nəfər əməkdaşını "Xan Çinar" İstirahət Mərkəzinə, Genetik Ehtiyatlar İnstitutu 29 nəfər əməkdaşını Qəbələ turuna, Riyaziyyat və Mexanika İnstitutu Quba turuna, Təcrübə Sənaye Zavodu 30 nəfər əməkdaşını İsmayıllı-Qəbələ turuna, Genetik Ehtiyatlar İnstitutu 12 nəfər əməkdaşını Quba turuna istirahətə aparıb. İnformasiya və Texnologiyalar, İdarəetmə Sistemləri, Neft-Kimya Prosesləri, Aşqarlar Kimyası, İqtisadiyyat institutları və Mərkəzi Elmi Kitabxana ümumilikdə 100-dən çox əməkdaşının Nabranda yerləşən "Xəzər" İstirahət Mərkəzində istirahətini təşkil edib.**

İdman

# "Zenit" İC-nin yetirməsi Avropa çempionu olub



**"Zenit" İdman Cəmiyyətinin yetirməsi Turan Bayramov Almaniyanın Dortmund şəhərində keçirilən gənclər arasında Avropa çempionatının qalibi olub.**

70 kiloqram çəki dərəcəsində mübarizəyə qoşulan sərbəst güləşçimiz T.Bayramov yarışa Almaniya idmançısı üzərində inamlı qələbə ilə start verib. Təmsilçimiz dörddəbir finalda daha əvvəl bir neçə dəfə məğlub etdiyi Narek Harutyunyanla qarşılaşıb. Bu dəfə də Ermənistan güləşçisinə qalib gələn T.Bayramov adını yarımfinala yazdırıb. Yarımfinalda gürcü rəqibini də üstələyən T.Bayramov finala yüksəlib.

Həlledici görüşdə Moldova güləşçisinə qalib gələn idmançımız Avropa çempionu olub.

**Qeyd edək ki, sərbəst güləşçimiz yarışa məşqçi-müəllimi Habil İbrahimovun rəhbərliyi altında hazırlaşıb.**

# Dörddəbir final mərhələsinin bütün iştirakçıları məlumdur

**Futbol üzrə Avropa çempionatının dörddəbir final mərhələsinin bütün cütlükləri müəyyənləşib. İyulun 2-də Sankt-Peterburqda İsveçrə-İspaniya, Münhendə Belçika-İtaliya, ertəsi gün Bakıda Çexiya-Danimarka, Romada Ukrayna-İngiltərə matçları baş tutacaq.**

**AVRO-2020**
**1/4 final**

**2 iyul**
**20:00.Sankt-Peterburq.**
**İsveçrə-İspaniya**
**23:00. Münhen.**
**Belçika - İtaliya**

**3 iyul**
**20:00. Bakı.**
**Çexiya - Danimarka**
**23:00. Roma.**
**Ukrayna - İngiltərə**

# Hüquq məsləhətxanası

**Firmama olan borcun ödənilməsi barədə məhkəməyə müraciət etmək istəyirəm. 8000 manat əsas borcdur, 9500 manat isə faizlərdir. Deyirlər ki, əsas borc 10000 manatdan az olduğuna görə işə sadələşdirilmiş qaydada baxılmalıdır. Bu qayda barədə məlumat verməyinizi xahiş edirəm.**

**Səbinə VƏLİYEVA, Sumqayıt şəhəri.**

- Mülki Prosessual Məcəllənin 23-1 fəslinə əsasən, mülki işlər üzrə iddianın qiyməti iki min manatdan, kommersiya mübahisələrinə dair işlər üzrə iddianın qiyməti on min manatdan az olan iddialar kiçik iddialar adlanır və bu cür işlərə sadələşdirilmiş qaydada baxılmasına yol verilir. Ərizə məhkəməyə ümumi qaydada verilir. Borc kommersiya fəaliyyəti ilə bağlı olduğuna görə kommersiya məhkəmələrinə müraciət olunmalıdır. Amma qanun əsas borcun məbləğinin 10000 manatdan az olması halında deyil, ümumilikdə borcun (sizin firmaya borc 17500 manat təşkil edir) həmin məbləğdən az olması halında işə sadələşdirilmiş qaydada baxılmasını tələb edir. Buna baxmayaraq, nəzərinizə çatdırmaq istəyirik ki, məhkəməyə verilən ərizədə ərizənin verildiyi məhkəmənin adı, iddiaçı və cavabdehin adları, onların poçt ünvanları, iddiaçının tələbi və onun əsaslandığı hallar, tələbin əsaslığını təsdiq edən sənədlə, əlavə edilən sənədlərin siyahısı qeyd edilməli, ərizə ümumi qaydada verildikdə iddiaçı tərəfindən imzalanır və iddiaçının əsaslandığı sənədlər ona əlavə edilir.

Ərizə "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə göndərildikdə iddiaçının elektron imzası ilə təsdiq olunur.

Ərizə məhkəməyə daxil olduğu gündən 30 (otuz) iş günü ərzində işə tərəflərin təqdim etdiyi sənədlər əsasında, məhkəmə baxışı keçirilmədən və tərəflər izahatları dinlənilmək üçün çağırılmadan baxılmalı və həmin işin həllinə dair qətnamə çıxarılmalıdır.

Məhkəmə qətnaməsindən apelyasiya şikayəti verilə bilər.

Kiçik iddialara dair işlər üzrə sadələşdirilmiş icraat qaydasında baxılmış işlər üzrə çıxarılmış məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə qəbul edildiyi gündən 1 (bir) ay keçdikdən sonra qanuni qüvvəyə minir.

**İşəgötürən tərəfindən Əmək Məcəlləsinin hansı maddələrinə əsasən işçinin əmək müqaviləsinə xitam verilə bilər? Deyirlər ki, bu qaydalar pozulduqda işəgötürən cərimə olunur. Bu barədə məlumat verməyinizi xahiş edirəm.**

**Əhməd ƏHMƏDOV, Ucar rayonu.**

- Əmək Məcəlləsinin 68-ci maddəsində qeyd edilir ki, əmək müqaviləsinə yalnız həmin Məcəllə ilə müəyyən edilmiş əsaslarla və qaydada xitam verilə bilər. Bu əsaslar aşağıdakılardır;
a) tərəflərdən birinin təşəbbüsü;
b) əmək müqaviləsinin müddətinin qurtarması;
c) əmək şəraitinin şərtlərinin dəyişdirilməsi;
ç) müəssisənin mülkiyyətçisinin dəyişməsi ilə əlaqədar;
d) tərəflərin iradəsindən asılı olmayan hallar;
e) tərəflərin əmək müqaviləsində müəyyən etdiyi hallar.

Həmin Məcəllənin 76-cı maddəsinin 2-ci hissəsinə görə, əmək müqaviləsinə eyni zamanda iki və daha artıq əsasla, həmçinin qanunvericilikdə nəzərdə tutulmayan əsasla, habelə Əmək Məcəlləsi ilə müəyyən edilmiş əmək müqaviləsinin ləğv edilməsi qaydalarına əməl olunmadan xitam verilə bilməz. Əgər belə hal olarsa, bu, əmək qanunvericiliyinin pozulması hesab edilir və bu, inzibati məsuliyyətə səbəb olur.

**55 yaşım var. 5 uşaq anasıyam, əmək müqaviləsi ilə işləyirəm. 5 uşağa görə pensiyaya çıxa bilərəmmi?**

**Şəhnaz NƏSİROVA, Lənkəran şəhəri.**

- Qanunvericiliyə əsasən, beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınların "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsinə uyğun şərtlər daxilində yaş həddi hər uşağa görə 1 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır.

Qanunun 7-ci maddəsinin tələblərinə əsasən isə, bu il iyulun 1-dək 62 yaşına çatmış qadınların fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə, sığorta stajından asılı olmayaraq, bu, pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda yaşa görə əmək pensiyası hüququ vardır.

55 yaşınız olduğu üçün yaşınız hər uşağa görə 1 il olmaqla 5 il azaldılsa da, yaşınız bu pensiyaya çıxmağa imkan vermir. Əgər bu il iyulun 1-nədək 57 yaşınız tamam olsa və pensiya təyinatı üçün maddədə qeyd olunan digər şərtlər də mövcud olsa idi, onda Siz pensiya təyinatı üçün müvafiq orqana müraciət edə bilərdiniz. Onda bu pensiya hüququndan istifadə edə bilərdiniz. Lakin yaşınız buna imkan vermir.

Qeyd edək ki, qadınlar üçün yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-nədək hər il 6 ay artırılır. Nəzərə alın ki, Sizin də yaşınız buna uyğun olaraq hər il 6 ay azaldılmaqla, başqa şərtlər də tam olmaqla, yaşa görə əmək pensiyası hüququ qazanacaqsınız.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

AHİK sədrinin müavini, "Ülfət" qəzetinin baş redaktoru Aqil Dadaşov, "Ülfət" qəzetinin baş redaktorunun müavini Bəyalı Rzayev tələbə yoldaşları
**İLHAM MAZANOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad HİRK-in rəhbərliyi və aparat işçiləri sahə Hİ Gədəbəy Rayon Komitəsinin sədri
**SÜLEYMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK-in sədri Rəşad Səfərov və aparat işçiləri Bakı-1 şöbəsinin sədri Bəylər Qurbanova atası
**ƏLİ QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təhsil İşçiləri Azad Hİ Gəncə Şəhər Komitəsinin sədri Bayram Hacıyev sahə Hİ Gədəbəy Rayon Komitəsinin sədri
**SÜLEYMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Tovuz Rayon Komitəsinin sədri Flora Pənahova sahə Hİ Gədəbəy Rayon Komitəsinin sədri
**SÜLEYMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Xəzər Rayon Komitəsinin sədri Həzərxan Əbilov sahə Hİ Gədəbəy Rayon Komitəsinin sədri
**SÜLEYMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Ağstafa Rayon Komitəsinin sədri Qoşqar Yaqubov sahə Hİ Gədəbəy Rayon Komitəsinin sədri
**SÜLEYMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Şəmkir Rayon Komitəsinin sədri Həsən İsmayılov sahə Hİ Gədəbəy Rayon Komitəsinin sədri
**SÜLEYMAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ Beyləqan Rayon Komitəsinin sədri Tahir Həsənov sahə Hİ Sabirabad Rayon Komitəsinin sədri Seyidhüseyn Hüseynova əzizi
**NİZAM müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil İşçiləri Azad Hİ İmişli Rayon Komitəsinin sədri Əlimirzə Şirinov sahə Hİ Sabirabad Rayon Komitəsinin sədri Seyidhüseyn Hüseynova əzizi
**NİZAM müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7693
Sifariş: 1181
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
www.ulfet-az.com
Sərbəst qiymət